AZƏRBAYCAN RESPUBLİKASININ

ALİ MƏHKƏMƏSİ

# M Ü N D Ə R İ C A T

Azərbaycan Respublikası Ali Məhkəməsinin Sədri Ramiz Rzayevin mətbuat və kütləvi informasiya vasitələrinin nümayəndələrinə müraciəti........................................................... 3
2015-ci ilin hakimlər, məhkəmə işçiləri, bütün hüquqşünaslar üçün mühüm əhəmiyyət kəsb edən tarixi hadisəsi........................................................................................... 6
Ali Məhkəmənin məhkəmə sistemində yeri, səlahiyyəti, tərkibi və strukturu........................... 20
Ali Məhkəmədə 2015-ci ildə baxılmış işlər haqqında ümumi məlumat.................................... 23
Ali Məhkəmənin məhkəmə kollegiyalarında və Plenumunda icraat......................................... 26
Ali Məhkəmənin kollegiyalarında 2014-cü ildə ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyətinə dair məlumat: ......................................................................................... 27
Ali Məhkəmənin Mülki kollegiyası........................................................................................... 27
Ali Məhkəmənin İnzibati-İqtisadi kollegiyası........................................................................... 31
Ali Məhkəmənin Cinayət kollegiyası........................................................................................ 39
Ali Məhkəmənin Hərbi kollegiyası........................................................................................ 45
Ali Məhkəmənin Plenumu........................................................................................................ 48
Ali Məhkəmənin Aparatı və İşlər idarəsi.................................................................................. 51
Ali Məhkəmənin 2015-ci ildə beynəlxalq əlaqələri.................................................................. 58
Ali Məhkəmənin İnternet səhifəsi............................................................................................ 63
Ali Məhkəmənin bülleteni........................................................................................................ 65
Ali Məhkəmənin fəaliyyətinin maliyyələşdirilməsi.................................................................. 66
Kütləvi informasiya vasitələri nümayəndələrinin Ali Məhkəmə ilə əlaqə qaydası………………………….......…......................................................................... 67

# Azərbaycan Respublikası Ali Məhkəməsinin Sədri Ramiz Rzayevin mətbuat və kütləvi informasiya vasitələrinin nümayəndələrinə M Ü R A C İ Ə T İ

***Hörmətli xanımlar və cənablar!***



Sizlərlə hər dəfə görüşməkdən məmnun olduğumu bildirmək istəyirəm və bu görüşün və fikir mübadiləsinin səmərəli olacağı qənaətindəyəm.

Nəzərinizə çatdırım ki, 2015-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin məhkəmə sistemi ilə bağlı Sərəncamlarının icrası və Ali məhkəmənin fəaliyyətinin təkmilləşdirilməsi və müasirləşdirilməsi istiqamətində bir sıra işlər görülmüşdür. Ədalət mühakiməsinin yüksək səviyyədə həyata keçirilməsi üçün ən müasir standartlara uyğun şərait yaradılmış, elektron məhkəməyə keçidin təmin olunması məqsədilə Ali Məhkəmədə elektron sənəd dövriyyəsi sistemi yenilənmişdir. Eyni zamanda əvvəlki illərlə müqayisədə 2015-ci il ərzində vətəndaşların hüquqlarının məhkəmə müdafiəsinin səviyyəsi yüksəlmişdir.

Bildiyiniz kimi, Azərbaycan Respublikası "İnsan Hüquqlarının və Əsas Azadlıqlarının Müdafiəsi haqqında" Avropa Konvensiyasına qoşulduğundan Avropa Məhkəməsinin presedent hüququ bizim hüquq sistemimiz üçün mühüm əhəmiyyət kəsb edir. Məhkəmələrin iş fəaliyyətinə olan tələblər daha da yüksəlmişdir. Bu baxımdan ədalət mühakiməsini həyata keçirən hakimlərin beynəlxalq hüquq normalarını, insan hüquqları sahəsində beynəlxalq standartları, onların tətbiqi təcrübəsini mənimsəmələri önəmli olduğundan Ali Məhkəmədə hər həftə keçirilən seminarlarda beynəlxalq hüquqi aktlar, xüsusən də "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasının müddəaları, Avropa Məhkəməsinin presedent hüququ öyrənilir. Hakimlərin və dəvət olunmuş beynəlxalq təşkilatların nümayəndələrinin iştirakı ilə "dəyirmi

masa"lar keçirilir,  vaxtaşırı qarşılıqlı təcrübə mübadiləsi məqsədilə Avropa dövlətlərinə səfərlər təşkil edilir.

İnternet səhifələrində bizim daim yeniləşdirilən saytımız yerləşdirilmişdir. Həmin saytda Ali Məhkəmənin Plenumu və müvafiq kollegiyaları tərəfindən qəbul edilmiş qərarlar və digər məlumatlar  yayılır.  Hər bir vətəndaş və media əməkdaşı  Ali Məhkəmənin fəaliyyəti haqqında  ətraflı  məlumat əldə edə bilər.

Məlumat üçün bildirim ki, son illər 40-dək məhkəmə binası müasir standartlara uyğun layihələndirilmiş, qısa müddətdə 11 məhkəmə üçün yeni binalar istifadəyə verilmiş,  bir o qədər də inşa olunmaqdadır. Bu binalarda vətəndaşların rahatlığı məqsədilə hər cür imkanların yaradılması bir çox problemləri, habelə korrupsiya  şəraitini  aradan qaldırır.

Mən hakimlər, məhkəmə işçiləri, bütün hüquqşunaslar üçün mühüm əhəmiyyət kəsb edən  bir tarixi hadisəni xüsusi olaraq vurğulamaq istəyirəm. 4 noyabr 2015-ci ildə Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyev Şəki məhkəmə kompleksinin açılışını etdi. Bu tədbir  məhkəmə hakimiyyətinin cəmiyyətdə rolunun  və yerinin müəyyənləşdirilməsinə xüsusi əhəmiyyət verilməsi  kimi qiymətləndirilməlidir.

Açılış zamanı cənab Prezident İlham Əliyev dərin məzmunlu, proqram xarakterli çıxışında ədliyyə və məhkəmə orqanları qarşısında mühüm vəzifələr qoymuş, korrupsiyanın aradan qaldırılmasında məhkəmələrin  rolunu xüsusi olaraq qeyd etmiş və bildirmişdir ki, korrupsiya ilə mübarizə aparmaq üçün ilk növbədə,  məhkəmə sistemində korrupsiya halları tam aradan qaldırılmalıdır.

Ədalət mühakiməsini həyata keçirən hakimlər qanunlara dürüst əməl etməli, məhkəmələrin cəmiyyətdə nüfuzunun artmasına,  məhkəmələrə inamın yüksəlməsinə nail olmalıdırlar.

Məhkəmə proseslərinin şəffaf, qərarlarının ədalətli olması əsas şərtdir. Ədalətli qərarlar insanlarda dövlətə inamı artırır.

2015-ci ildə Ali Məhkəmənin  kollegiyalarının fəaliyyətində nəzərə çarpacaq irəliləyiş olmuşdur. Mülki, inzibati-iqtisadi və cinayət  kollegiyalarında 2015- ci ildə baxılmış işlərin sayı 2014-cü illə müqayisədə artmışdır. Mülki kollegiyada  15,2  faiz, inzibati-iqtisadi kollegiyada  3,7 faiz, cinayət kollegiyasında 1,6 faiz  artma müşahidə olunmuşdur. Hərbi kollegiyada  isə baxılan işlərin sayı 17,2 faiz azalmışdır.

Ümumiyyətlə, Ali Məhkəmədə 2014-cü ildə 8668 işə baxılmışdısa, 2015-ci ildə bu rəqəm 9404 olmuşdur. Yəni 8,5 faiz artmışdır. Baxılan işlərin sayının artmasına baxmayaraq ləğv olunan məhkəmə qərarlarının sayı 0,4 faiz azalmışdır.

2015-ci ildə Ali Məhkəmədə vətəndaşların ərizə və şikayətlərinə, digər müraciətlərinə baxılmasına, onlara hüquqi cəhətdən əsaslı və düzgün cavab verilməsinə diqqət artırılmışdır.

***Hörmətli jurnalistlər!***

Sizi Ali Məhkəmə ilə daha sıx əməkdaşlığa dəvət edirəm. Qanunun aliliyinin təmin olunması, insan hüquq və azadlıqlarının müdafiəsi, sosial ədalətin bərpası naminə bu, çox vacibdir. Sizə sağlam həyat və yaradıcılıq uğurları arzulayıram.

**Hörmətlə,**

**Ramiz Rzayev**
**Azərbaycan Respublikası**
**Ali Məhkəməsinin Sədri**

# 2015-ci ilin hakimlər, məhkəmə işçiləri, bütün hüquqşünaslar üçün mühüm əhəmiyyət kəsb edən tarixi hadisəsi



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də Şəki Məhkəmə Kompleksinin yeni inzibati binasının açılış mərasimində iştirak edib.

Ədliyyə naziri Fikrət Məmmədov yeni binanın inşası və burada yaradılan yüksək şərait barədə dövlətimizin başçısına məlumat verdi. Qeyd edildi ki, ümumi sahəsi 19,8 min kvadratmetr olan beşmərtəbəli kompleksin inşasına 2012-ci ilin noyabrında başlanıb və bu ilin oktyabrında

başa çatdırılıb. Tikinti işləri ən müasir standartlara uyğun aparılıb. "Əlillərin hüquqlarının qorunması haqqında" Konvensiyanın tələblərinə müvafiq olaraq binada onlar üçün bütün zəruri şərait yaradılıb. Əlillərin binaya daxil olması üçün xüsusi qurğu quraşdırılıb.

Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi.

Prezident İlham Əliyev kompleksdə yaradılan şəraitlə tanış oldu.

Azərbaycan Hökumətinin Dünya Bankı ilə birgə maliyyələşdirdiyi və Ədliyyə Nazirliyinin həyata keçirdiyi "Ədliyyə sisteminin müasirləşdirilməsi" layihəsi çərçivəsində tikilən binanın foyesində ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin ölkəmizdə məhkəmə-hüquq sisteminin inkişafına göstərdikləri diqqət və qayğını əks etdirən fotoguşələr yaradılıb.

Bildirildi ki, Şəki Məhkəmə Kompleksi Dünya Bankı ilə birgə həyata keçirilən layihə çərçivəsində inşa olunmuş ikinci məhkəmə kompleksidir. Kompleksdə Şəki Apelyasiya Məhkəməsi, Şəki İnzibati-İqtisadi Məhkəməsi, Şəki Ağır Cinayətlər Məhkəməsi və Şəki Rayon Məhkəməsi yerləşir. Burada 250 nəfər, o cümlədən 42 hakim, 170-dən çox məhkəmə aparatı əməkdaşı və 35 ədliyyə işçisi çalışacaq. Digər yeni məhkəmə binalarında olduğu kimi, müasir informasiya-kommunikasiya qurğularının quraşdırıldığı bu bina da inzibati və ictimai zonalara bölünür və hər iki zonanın girişi ayrıdır. İnzibati zona hakimlər və məhkəmə işçiləri, ictimai zona isə vətəndaşlar, dövlət ittihamçıları və vəkillər üçün nəzərdə tutulub. Bununla da hakimlər və vətəndaşlar arasında qeyri-prosessual münasibətlər məhdudlaşdırılır və onlar yalnız məhkəmə iclas zallarında görüşürlər.

Binada gözdən əlil vətəndaşların sərbəst hərəkəti üçün hər mərtəbənin döşəməsinə xüsusi örtük salınıb. İctimai zonada bütün otaqların adlarını əks etdirən lövhələrdə gözdən əlil insanlar üçün də xüsusi yazılar var. Buradakı müasir elektron məlumat daşıyıcıları vətəndaşlara məhkəmə prosesləri və onların keçiriləcəyi tarix, vaxt, məhkəmə zalı, hakim və digər məsələlərlə bağlı informasiyanı maneəsiz əldə etməyə imkan yaradır.

Prezident İlham Əliyev məhkəmə zallarında yaradılan şəraitlə tanış oldu.

Bildirildi ki, kompleksin əsas binasında 16 məhkəmə iclas zalı – cinayət işlərinin baxıldığı 7 və mülki işlərin baxıldığı 9 zal fəaliyyət göstərir. Kompleksdə Azərbaycan Prezidentinin "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında Sərəncamına əsasən bütün zəruri tədbirlər görülüb. Məhkəmə zallarında proseslərin daha dəqiq və sürətlə protokollaşdırılmasına xidmət edən və audio-video yazılışları aparan "Femida" sistemi, videokonfransların, təqdimatların keçirilməsi, elektron sənəd dövriyyəsi və məhkəmə işlərinin idarəetmə sistemi üçün qurğular quraşdırılıb. Təqsirləndirilən şəxslər zalda beynəlxalq standartlara uyğun xüsusi ayrılan şüşə otaqda saxlanılırlar. Burada onların vəkillə birbaşa əlaqə saxlamaları üçün müvafiq qurğu da var. Məhkəmə zalında əcnəbi şəxslərin iştirakı ilə işlərə

baxılan zaman tərcümə xidmətlərinin göstərilməsi üçün xüsusi yer düzəldilib. Zalların qarşısında vəkillər, dövlət ittihamçıları, şahidlər və icra məmurları üçün otaqlar ayrılıb. Burada, həmçinin konfrans zalları, o cümlədən Şəki Apelyasiya Məhkəməsi Rəyasət Heyətinin zalı, böyük akt zalı var. İnzibati zonada da hakimlər və məhkəmə aparatı işçiləri üçün lazımi şərait yaradılıb.

Konfrans zalı ilə tanışlıq zamanı dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, müasir avadanlıqla təchiz edilən zalda hakimlərə və məhkəmə işçilərinə Ali Məhkəmənin Plenumuna, Məhkəmə-Hüquq Şurasının, həmçinin Ədliyyə Nazirliyinin iclaslarına, müşavirə və toplantılarına birbaşa qoşulmaq imkanı yaradılıb. Kompleksin böyük iclas zalında isə həm beynəlxalq, həm də ölkə səviyyəsində tədbirlər keçirmək mümkündür. Yeməkxana və kitabxana da ən yüksək səviyyədə hazırlanıb. Binanın alt qatında təqsirləndirilən şəxslərin müvəqqəti saxlanması üçün kameralar, onların vəkillərlə görüş otağı və konvoy maşını üçün yeraltı dayanacaq fəaliyyət göstərir. Binada, həmçinin arxiv otaqları, tibb və poçt məntəqələri, ana və uşaq otağı, maddi sübutlar otağı, hakimlər və işçilərin avtomobilləri üçün yeraltı qaraj, eləcə də vətəndaşlar üçün avtodayanacaqlar var.

Bir sözlə, burada yaradılan şərait göstərir ki, son illərdə ölkədə bütün sahələrə olduğu kimi, ədalət mühakiməsinin səmərəsinin artırılmasına da xüsusi diqqət yetirilir. Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, məhkəmə sisteminin daha da müasirləşdirilərək beynəlxalq standartlara tam uyğunlaşdırılması işləri uğurla aparılır.

Diqqətə çatdırıldı ki, Şəki Məhkəmə Kompleksinin yerləşdiyi ərazidəki rayon məhkəməsinin köhnə inzibati binası yenidən qurulub. İkimərtəbəli binada Şəki rayonu üzrə icra şöbəsinin, Şəki rayon qeydiyyat şöbəsinin və Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin Şəki regional bölməsinin fəaliyyəti üçün hər cür şərait var. Burada yaradılan yüksək şərait, həmçinin təntənəli nikah mərasimlərinin keçirilməsinə imkan verəcək.



Prezident İlham Əliyev kompleksdə məhkəmə və ədliyyə orqanlarının əməkdaşları ilə görüşdü.

Dövlətimizin başçısı görüşdə nitq söylədi.

## Prezident İlham Əliyevin nitqi

Bu gün biz Şəki Məhkəmə Kompleksinin açılışını qeyd edirik. Bu münasibətlə sizi təbrik edirəm. Çox gözəl binadır. Həm memarlıq, həm funksionallıq baxımından ən yüksək standartlara cavab verir. Bütün lazımi şərait yaradılıb, müasir avadanlıqlarla təchiz edilib. Bir sözlə, bu Məhkəmə Kompleksi ən yüksək standartlara cavab verir. Son illər ərzində Azərbaycanda məhkəmə binalarının tikintisi uğurla davam etdirilir. Biz bu yaxınlarda Bakıda Sabunçu Məhkəmə Kompleksinin açılışını qeyd etmişik. Verilən məlumata görə, on rayonda yeni məhkəmə binaları inşa edilir. Beləliklə, məhkəmələrin maddi-texniki bazasının möhkəmləndirilməsi işində çox ciddi addımlar atılır. Bu binalar həm dövlət vəsaiti hesabına, eyni zamanda, Dünya Bankının köməyi ilə tikilir. Bu da bizim beynəlxalq maliyyə qurumları ilə uğurlu əməkdaşlığımızın nəticəsidir. Azərbaycanda məhkəmə-hüquq sisteminin təkmilləşdirilməsi prosesi uğurla gedir. Məhkəmə-Hüquq Şurasının fəaliyyətini xüsusilə qeyd etmək istəyirəm. Artıq on ildir ki, Şura fəaliyyət göstərir. Bu sahədə aparılan islahatlar, əldə edilmiş nailiyyətlər Azərbaycanda məhkəmə-hüquq sisteminin möhkəmlənməsinə, şəffaflığın artırılmasına gətirib çıxarmışdır.

Azərbaycanda hüquqi dövlət quruculuğu prosesi uğurla gedir. Hüquqi dövlət quruculuğu prosesinin təşəbbüskarı ulu öndər Heydər Əliyev olmuşdur. Onun təşəbbüsü ilə 1990-cı illərin əvvəllərində çox ciddi addımlar atılmışdır. Müstəqil Azərbaycanın Konstitusiyası qəbul edilmişdir. O vaxt belə bir strateji istiqamət müəyyən edilmişdir ki, Azərbaycanda hüquqi dövlət qurulmalıdır, qanunun aliliyi təmin edilməlidir və məhkəmə sistemi dünyada mövcud olan ən mütərəqqi təcrübəyə əsaslanmalıdır.

Hesab edirəm ki, son illər ərzində bu istiqamətdə böyük nailiyyətlər əldə edilib. Azərbaycanda hüquqi dövlət quruculuğu prosesi sürətlə gedir. Əlbəttə ki, məhkəmələrin şəffaflığı, məhkəmələrin işi burada xüsusi rol oynayır. Verilən məlumata görə, son vaxtlar məhkəmə qərarları ilə bağlı daxil olan şikayətlərin sayı azalır. Bu, onu göstərir ki, qərarların böyük əksəriyyəti ədalətli qərarlardır. Çünki biz daim ictimai rəyi öyrənirik. Həm Prezident Administrasiyasına, həm də digər dövlət orqanlarına gələn müraciətlərə çox diqqətlə baxılır və hər bir şikayət əsasında araşdırma aparılır. Deməyə əsas var ki, son vaxtlar bu sahədə müsbətə doğru dəyişikliklər göz qabağındadır.

Hesab edirəm ki, görüləcək tədbirlər və gələcəkdə aparılacaq islahatlar nəticəsində biz məhkəmə sistemində şəffaflığı maksimum dərəcədə artıra bilərik. Son vaxtlar bu sahədə qəbul edilmiş qərarlar mühüm rol oynayır. Xüsusilə "Elektron məhkəmə" informasiya sisteminin yaradılması, - bu binada artıq bu sistem tətbiq olunur, - həm şəffaflığı təmin edəcək, həm

bürokratik əngəlləri aşacaq. Bir sözlə, məhkəmə sistemini daha da müasir və daha da böyük inama malik olan sistemə çevirəcəkdir.

Hazırda bütün yeni tikilmiş məhkəmə komplekslərində "Elektron məhkəmə" informasiya sistemi quraşdırılır və bu da çox ciddi islahatdır. Çünki məhkəmələrin qərarları ədalətli olmalıdır. Ümumiyyətlə, həyatda hər şey ədalət əsasında qurulmalıdır. Ədalət pozulduqda əlbəttə ki, həm narazılıq yarana, həm də, ümumiyyətlə, cəmiyyətin müsbət inkişafı çətinliklərlə üzləşə bilər. Ədalətli qərarlar həm insanlarda dövlətə inamı artırır, eyni zamanda, həyatımızı tənzimləyir. Bütün qərarlar ədalətli olmalıdır. Məhkəmə sistemində qəbul edilmiş qərarlar, aparılan islahatlar, bax, bu məqsədi güdür.

Qərəzli yanaşma olmamalıdır. Korrupsiya hallarına qarşı mübarizə daha da ciddi aparılmalıdır. Bir sözlə, məhkəmə-hüquq sistemi maksimum dərəcədə şəffaf olmalıdır. Bu sahədə beynəlxalq təcrübənin Azərbaycanda tətbiq edilməsinin çox böyük mənası var. Çünki inkişaf etmiş ölkələrdə bir çox hallarda biz məhkəmələrin şəffaflığını görürük. Əlbəttə ki, hər bir ölkədə əsassız qərarlar da qəbul edilə bilər. Ancaq bütövlükdə götürdükdə inkişaf etmiş ölkələrdə, Avropa ölkələrində məhkəmə sistemi şəffafdır, ədalətlidir. Bu da demokratik inkişaf üçün çox önəmli bir şərtdir. Əlbəttə, hər bir ölkədə problemlər də, qüsurlar da, mənfi hallar da var. Bəzi hallarda biz Azərbaycanda, Avropada mövcud olan vəziyyətlə, qüsurlarla bağlı fikirlərimizi ifadə edirik. Yəni, biz də tənqidə açığıq və hər bir ölkə tənqidə açıq olmalıdır. Heç bir ölkə kamil deyil. Hər bir ölkədə qüsurlar, nöqsanlar var. Son vaxtlar Avropa qitəsində siyasi sahədə, beynəlxalq məsələlərin həllində çox ciddi səhvlər buraxılıbdır. Ancaq hesab edirəm ki, Avropa ölkələrində məhkəmə sistemi nümunə ola bilər. Burada biz bunu açıq deməliyik. Bu müsbət təcrübəni biz Azərbaycanda tətbiq etməliyik. Yəni, bu praktika göz qabağındadır. Burada heç bir şey icad etməyə ehtiyac yoxdur. Sadəcə olaraq işin icrası qəbul edilmiş qərarlarla uzlaşmalıdır. Qəbul edilmiş qərarlar, atılan addımlar düzgün istiqamətdə olmalıdır. Eyni zamanda, bunu qanunvericilik də, Prezident tərəfindən imzalanan sərəncamlar da tənzimləyir. Əsas odur ki, bu, həyatda öz əksini tapsın. Bu qərarların düzgün icrası Azərbaycanda məhkəmə sisteminin şəffaflığını artıracaq və xoşagəlməz hallara qarşı bizim siyasətimizi daha da təsirli edəcək.

Azərbaycanda korrupsiyaya və rüşvətxorluğa qarşı çox ciddi mübarizə aparılır. Mən bu məsələlərlə bağlı öz fikirlərimi dəfələrlə bildirmişəm, müvafiq göstərişlər verilmişdir. Burada biz öz işimizi üç istiqamət üzrə davam etdirməliyik. Əlbəttə ki, inzibati tədbirlər, cəza tədbirləri görülür və görüləcək. Son vaxtlar Azərbaycan ictimaiyyəti görür ki, cəmiyyətdəki mövqeyindən asılı olmayaraq korrupsiyaya, rüşvətxorluğa, qanunsuzluğa yol vermiş şəxslər ciddi şəkildə cəzalandırılır. Çünki cəmiyyətdə heç kim toxunulmaz ola bilməz. Heç kimin immuniteti ola bilməz. Qanun qarşısında hər kəs bərabərdir. Ona görə cəza tədbirləri davam etdiriləcək.

Çünki əfsuslar olsun ki, buna hələ ehtiyac var. Ancaq bununla bərabər, əlbəttə ki, sistem xarakterli, institusional islahatların aparılmasına böyük ehtiyac var. Biz korrupsiya, rüşvətxorluq üçün, əgər belə demək mümkündürsə, meydanı daraltmalıyıq. Azərbaycanda hazırda elə islahatlar aparılmalıdır və aparılır ki, bu meydan daha da daralsın və bu bəla, bu yara aradan götürülsün. Hesab edirəm ki, son illər ərzində şəffaflıqla, institusional islahatlarla bağlı atılan addımlar korrupsiya, rüşvətxorluq üçün meydanı böyük dərəcədə daraldıb. Ancaq hələ ki, görüləsi işlər çoxdur və məhkəmə-hüquq sisteminin bu sahədəki fəaliyyəti çox önəmlidir. İlk növbədə, məhkəmə sistemində korrupsiya halları tam aradan qaldırılmalıdır. Buna yol verilməməlidir. Eyni zamanda, məhkəmə qərarları elə olmalıdır ki, bu böyük bəla ilə bizim mübarizəmiz daha da səmərəli olsun.

Azərbaycanda hüquqi dövlət quruculuğu istiqamətində böyük işlər görülüb, böyük nailiyyətlər var. Məhkəmə sistemində şəffaflıq və ədalətin tam bərqərar olması ümumi demokratik inkişafımıza müsbət təsir göstərir. Azərbaycan demokratiya yolu ilə gedir. Azərbaycanda bütün azadlıqlar - söz azadlığı, mətbuat azadlığı, sərbəst toplaşma azadlığı, vicdan, din azadlığı, siyasi fəaliyyət azadlığı təmin edilir, heç bir məhdudiyyət yoxdur. Azərbaycanda yaşayan vətəndaşlar bunu gündəlik həyatda görürlər. Azərbaycanda yüzlərlə mətbu orqan, azad internet mövcuddur. Əhalinin 75 faizi internet istifadəçisidir. Sərbəst toplaşma azadlığı tam şəkildə təmin edilir. O, başqa məsələdir ki, bəzi siyasi qrupların mitinqlərinə 200-300 adam yığışır. Ancaq fakt budur ki, heç bir məhdudiyyət yoxdur.

Son parlament seçkiləri bir daha onu göstərir ki, Azərbaycan demokratiya yolu ilə inamla, uğurla gedir. Son parlament seçkiləri Azərbaycan xalqının iradəsini tam şəkildə ifadə edibdir. Yüzlərlə xarici müşahidəçi seçkilərə çox müsbət qiymət verib. MDB-nin, Avropa Şurası Parlament Assambleyasının müşahidəçi missiyaları seçkilərin demokratik, ədalətli, şəffaf keçirilməsi ilə bağlı öz rəsmi rəylərini açıqladılar. Digər beynəlxalq qurumların nümayəndələri də seçkiləri yüksək qiymətləndirdilər. Bu, dövlətimizin, xalqımızın növbəti böyük qələbəsidir və bir daha onu göstərir ki, Azərbaycanda demokratik inkişaf sürətlə gedir.

Bu gün Azərbaycan o ölkələrdəndir ki, burada gedən proseslər xalq tərəfindən müəyyən edilir. Xalq da öz sözünü seçkilər vasitəsilə ifadə edir. Xalq-iqtidar birliyi, gözəl ictimai iqlim və demokratik proseslər ölkəmizi gücləndirir. Məhz buna görə Azərbaycanda sabitlik maksimum dərəcədə təmin edilir, ölkəmizin inkişafı ilə bağlı heç bir fikir ayrılığı yoxdur. Çünki bizim apardığımız siyasət xalqın maraqlarını tam ehtiva edir. Bizim siyasətimiz xalqın maraqları üzərində qurulubdur. Təhlükəsizlik, daxili sabitlik, iqtisadi inkişaf, sosial ədalət, demokratiya, azadlıqlar, müstəqil xarici siyasət - bizim əsas prinsiplərimiz bunlardan ibarətdir və hər istiqamət üzrə biz çox uğurlu mənzərənin uğurlu nəticələrini görürük.

Bu gün Azərbaycan dünya miqyasında iqtisadi və sosial inkişafla bağlı seçilən ölkələrdəndir. Heç bir böhran bizim iqtisadi inkişafımıza ciddi təsir edə bilməz. Amma müəyyən dərəcədə təsir edə bilər. Bütövlükdə builki iqtisadi-sosial göstəricilərimiz göz qabağındadır. İqtisadiyyat artır, sosial layihələr, infrastruktur layihələri icra edilir, o cümlədən bu bölgədə. Bu gün Zaqatalada infrastruktur layihələrinin açılışını qeyd etmişik, Şəkidə, bütün bölgələrdə, bütün şəhər və rayonlarımızda tikinti-quruculuq işləri aparılır.

Bununla bərabər, beynəlxalq nüfuzumuz artır, Azərbaycan dünyada etibarlı tərəfdaş kimi öz rolunu oynayır. Bizim siyasətimizə çox böyük maraqla və rəğbətlə yanaşırlar. İlk növbədə ona görə ki, biz müstəqil xarici siyasət aparırıq və bizim siyasətimizin təməlində, bir daha demək istəyirəm, Azərbaycan xalqının iradəsi dayanır. Heç bir kənar qüvvə bizim siyasətimizə təsir edə bilməz. Belə cəhdlər olub, var, düzdür azalır. Ancaq buna baxmayaraq, biz öz yolumuzla gedirik və nəticə də göz qabağındadır.

Bu gün dünyada gedən proseslər, qanlı toqquşmalar, müharibələr artıq dünya gündəmini zəbt edir. Yəni, bu, adi hala çevrilib. Ona görə Azərbaycanda sabitliyi, təhlükəsizliyi qorumaq, möhkəmləndirmək doğrudan da çox təqdirəlayiq bir haldır. Bu şəraitdə müstəqil siyasət yürütmək, iqtisadi-sosial inkişafa nail olmaq onu göstərir ki, düzgün siyasət aparılır, xalq da bunu görür, bəyənir və seçkilərdə öz sözünü deyir.

Ona görə Azərbaycanda aparılan işlər və gələcəkdə bizim planlarımızın reallaşması ölkəmizi daha da gücləndirəcəkdir. Mən gələcəkdə sosial və iqtisadi inkişafla bağlı heç bir ciddi problem görmürəm. Bizim maliyyə vəziyyətimiz, manatın məzənnəsi sabitdir, kifayət qədər valyuta ehtiyatlarımız var, bütün sosial layihələr - infrastruktur layihələri, tikinti-quruculuq işləri icra edilir.

Enerji sektorunda Azərbaycanın dünyadakı rolu getdikcə artmaqdadır və bu gün biz "Cənub" qaz dəhlizi kimi nəhəng layihəni - Avropanın bir nömrəli enerji layihəsini icra edirik və həm də liderlik göstəririk. Yəni, bütün bu işlər davam etdiriləcək. Bu işləri sürətləndirmək və daha da böyük nəticələr əldə etmək üçün cəmiyyətdə hələ ki, mövcud olan, bizi - iqtidarı və xalqı narahat edən problemlər aradan qaldırılmalıdır. Bunların içində korrupsiya, rüşvətxorluq birinci yerdədir. Çünki korrupsiya dövlətimizin dayaqlarını sarsıdır, inkişafı, azad rəqabəti əngəlləyir, müəyyən dərəcədə inamsızlıq yaradır. Ona görə məhkəmə işçilərinin burada çox böyük rolu vardır. Bir daha demək istəyirəm, ilk növbədə, məhkəmə sistemində korrupsiyaya, rüşvətxorluğa yol verilməməlidir.

İslahatlar arasında onu da qeyd etməliyəm ki, hakimlərin maddi təminatı da son illər ərzində böyük dərəcədə yaxşılaşıbdır. Nəyə görə? Ona görə ki, normal yaşasınlar. Yəni, dövlət tərəfindən təminat yüksək səviyyədədir, imkan daxilində daha da artırılacaqdır. Məhkəmə sistemi

elə olmalıdır ki, korrupsiyaya, rüşvətxorluğa, ədalətsizliyə qarşı bizim mübarizəmiz daha da təsirli, səmərəli olsun və inkişafımıza mane olan bu əngəllər aradan götürülsün.

Buna nail olmaq üçün çox güclü siyasi iradə var - dövlət tərəfindən göstərilən iradə. Eyni zamanda, çox böyük ictimai dəstək var - xalq tərəfindən göstərilən dəstək. O ki qaldı dövlət məmurlarına - vəzifəli şəxslər öz vəzifə borcunu şərəflə yerinə yetirsinlər, nöqsanlara yol verməsinlər, insanları incitməsinlər, əsassız tələblər irəli sürməsinlər. Əfsuslar olsun, biz hələ ki, bu xoşagəlməz mənzərə ilə üzləşirik. Ancaq ədalətli istintaq və ədalətli məhkəmə qərarları, hesab edirəm ki, bu sahədə də ciddi irəliləyişə gətirib çıxaracaqdır.

Son vaxtlar sahibkarlarla bağlı faktlar üzə çıxır. Bu, dəhşətli faktlardır. Dövlət nümayəndələri tərəfindən sahibkarlara qarşı nə qədər böyük ədalətsizliklər edilib. Onlara qarşı əsassız tələblər irəli sürülüb. Onların əmlakı bəzi hallarda əllərindən alınıb. Onlardan külli miqdarda rüşvət alınıb, bəzi hallarda reketlik edilib. Ona heç rüşvət də demək olmaz. Rüşvət o vaxt verilir ki, kimsə nə isə etmək istəyir, işi asanlıqla getsin deyə rüşvət verir. Amma bəzi hallarda sadəcə olaraq sahibkarların əlindən əmlak, vəsait alınır, onlara hədə-qorxu gəlirdilər, işgəncələr verirdilər. Ona görə ədalətli məhkəmə sistemi bu faktlara adekvat qiymət verməlidir.

Heç bir cəmiyyət kamil deyil. Hər bir ölkədə pozuntular var. Misal üçün inkişaf etmiş ölkələrdə gizli həbsxanalar yaradılmışdır. Bu, neçə il bundan əvvəl böyük bir beynəlxalq qalmaqala çevrilmişdir. İnkişaf etmiş ölkələr, demokratiyanın beşiyi sayılan ölkələr bax, bu işlərlə məşğuldurlar. İnsanlar qanunsuz, məhkəmə qərarı olmadan illərlə həbsxanalarda saxlanılır. Bu, yaraşarmı inkişaf etmiş ölkələrə?! Əlbəttə, yaraşmaz. Bəzi hallarda inkişaf etmiş ölkələrdə insanlar siyasi fəaliyyətə görə həbs edilir, saxlanılır. Bəzi hallarda onları neçə il girov kimi saxlayırlar. Bəzi hallarda inkişaf etmiş ölkələrdə əsassız, ədalətsiz hökmlər çıxarılır. Bu, göz qabağındadır. Kimin pulu varsa, gedir güclü vəkil tutur və məsuliyyətdən boyun qaçırır.

Yəni, bu, hər bir ölkədə var. Amma mən istəyirəm ki, Azərbaycanda olmasın. Mən istəyirəm ki, Azərbaycanda hər şey ədalətli olsun. Əminəm ki, siz də bunu istəyirsiniz, Azərbaycan xalqı da bunu istəyir.

Ona görə də məhkəmə işçilərinin fəaliyyətindən çox şey asılıdır. Yenə də demək istəyirəm, son vaxtlar bu sahədə aparılan islahatlar və verilmiş qərarlar, onların icrası müsbət dinamikanı təmin edir. Ancaq hələ görüləsi işlər çoxdur. Əminəm ki, məhkəmə işçiləri öz vəzifə borclarını bundan sonra da şərəflə yerinə yetirəcəklər və cəmiyyətdə məhkəmələrin fəaliyyəti ilə bağlı heç bir narazılıq olmayacaq. Nə vaxt ki, məhkəmə qərarları ilə bağlı şikayətlər daxil olmayacaqsa, o vaxt biləcəyəm ki, biz artıq istədiyimizə nail ola bilmişik.

Mən sizi bu gözəl hadisə - Şəki Məhkəmə Kompleksinin açılışı münasibətilə bir daha təbrik edirəm, Sizə fəaliyyətinizdə uğurlar arzulayıram.

X X X

Ədliyyə naziri **Fikrət MƏMMƏDOV** çıxış edərək dedi:

Möhtərəm cənab Prezident.

İlk növbədə, məhkəmə və ədliyyə orqanlarının inkişafına mühüm əhəmiyyət verərək Şəki Məhkəmə Kompleksinin açılışını şəxsən həyata keçirdiyinizə görə bütün ədliyyə işçiləri adından Sizə dərin minnətdarlığımızı bildirirəm.

Zati-aliləri, dövlət başçısı seçildiyiniz ilk gündən ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi hüquq siyasətini uğurla inkişaf etdirərək ədalət mühakiməsinə xüsusi diqqət yetirmisiniz, tapşırıqlarınız bu sahədə köklü islahatlara geniş vüsət vermişdir. Təşəbbüsünüzə əsasən qəbul edilmiş yeni qanunlarla məhkəmə hakimiyyətinin müstəqilliyi daha da möhkəmlənmiş, onun özünüidarə orqanı kimi yaradılmış Məhkəmə-Hüquq Şurası bu il fəaliyyətinin 10 illiyini qeyd etmişdir.

Qərarlarınıza əsasən bütün regionlarda 20-dək yeni məhkəmənin, o cümlədən apelyasiya, ağır cinayətlər, iqtisad və xüsusilə, dövlət orqanları ilə bağlı iddialara baxan inzibati məhkəmələrin təsis edilməsi vətəndaşların müraciət imkanlarının asanlaşmasına, insan haqlarının etibarlı müdafiəsinə və bölgələrdə hüquq institutlarının inkişafına təkan vermişdir. Hakim ştatlarını 2 dəfə artırmağınız ədalət mühakiməsinin səmərəsinə və keyfiyyətinə əsaslı təsir göstərmişdir.“Elektron məhkəmə” informasiya sisteminin yaradılması haqqında Sərəncamınız isə məhkəmə fəaliyyətində inqilabi təkamülün əsasını qoymuşdur. Sizə təqdim edilmiş və artıq sınaq rejimində istifadəsinə başlanılan bu sistemin tətbiqi nəticəsində insanlar məhkəməyə gəlmədən, elektron formada müraciət edəcək, məhkəmə prosesləri, qərarlar, onların icra vəziyyəti və s. məlumatları əks etdirən elektron “şəxsi kabinetə” malik olacaqlar.

Müasir məhkəmə infrastrukturunun yaradılması üzrə tədbirlər xüsusi qeyd olunmalıdır. Təkcə Dünya Bankı ilə birgə layihə çərçivəsində 40-dək məhkəmə binası müasir standartlara uyğun layihələndirilmiş, qısa müddətdə 11 məhkəmə üçün yeni, müasir binalar istifadəyə verilmiş, bir o qədər də məhkəmə üçün, o cümlədən dövlət büdcəsi hesabına yeni binalar inşa olunmaqdadır.

Bu binalarda vətəndaşların rahatlığı məqsədilə hər cür imkanların yaradılması bir çox problemləri, habelə korrupsiya üçün şəraiti aradan qaldırır. Yeri gəlmişkən, cənab Prezident, Azərbaycan hökuməti ilə birgə həyata keçirilən bu layihəni Bank dünyada ədliyyə sahəsində ən uğurlu layihə kimi qiymətləndiri Möhtərəm cənab Prezident, Azərbaycan ədliyyəsinin yüksək diqqətinizdə olduğu daim hiss edilir. Bu mənada təşəbbüsünüzlə ədliyyə fəaliyyətini tənzimləyən Qanunun, nazirliyin yeni əsasnaməsinin, ədliyyənin inkişafına dair ayrıca Fərman və Dövlət

Proqramının qəbul edilməsini, regional şöbələrin, Ədliyyə Akademiyasının yaradılmasını, nəhayət, son 10 ildə nazirlik və məhkəmələr üçün ayrılan büdcə vəsaitinin 6 dəfəyədək artırılmasını xüsusi qeyd etmək istərdim.Qanun yaradıcılığında fəal iştirak edən nazirlik tərəfindən son illər ictimai həyatın müxtəlif sahələrinə dair 3.500-dək layihə hazırlanmış, 23 min layihə ekspertizadan keçirilmiş, əhalinin sərbəst və kütləvi istifadə etdiyi qanunvericiliyin elektron bazası yaradılmışdır.

Sahibkarlığın inkişafına əngəllərin aradan qaldırılması ilə bağlı əhalidə böyük rəğbət doğuran qəti və prinsipial tədbirlərinizə uyğun olaraq, Ədliyyə Nazirliyi tərəfindən yoxlamaların reyestrinin yenidən, daha mükəmməl qurulması üzrə işlər görülür. Ədalət mühakiməsinin ayrılmaz tərkib hissəsi olan məhkəmə qərarlarının icrası işi də yenidən təşkil edilmiş, icra məmurlarının səlahiyyətləri genişləndirilməklə daha təsirli icra mexanizmləri yaradılmışdır. İcra işinin vəziyyətinə diqqətiniz və bu barədə mütəmadi məlumatlandırılmağınız müsbət nəticəsini verir, icra prosesi iştirakçılarının məsuliyyətini artırır. Məhkəmə ekspertizasına diqqətiniz sayəsində nazirliyin Ekspertiza Mərkəzi ən müasir avadanlıqla təchiz edilmişdir. Elm və texnikanın son nailiyyətlərinin və yeni texnologiyaların tətbiqi nəticəsində hər il məhkəmə və istintaq orqanlarının 100 minədək sualı cavablandırılır. Ekspert rəylərinin bugünkü səviyyəsi onların beynəlxalq miqyasda tanınmasına səbəb olmuşdur. Həmçinin bölgələrdə, o cümlədən Naxçıvan, Gəncə, Şirvan və Şəkidə ekspertiza filiallarının yaradılması araşdırmaların operativliyini təmin etmişdir. Penitensiar sistemdə aparılan islahatlar nəticəsində məhkumların hüquqları genişləndirilmiş, onların saxlanma şəraiti, ərzaq və tibbi təminatı yaxşılaşdırılmış, xüsusilə bu sahədə ictimai nəzarət gücləndirilmişdir.

Beynəlxalq standartlara uyğun inşa edilmiş Bakı istintaq təcridxanasının açılışı zamanı tapşırıqlarınız penitensiar infrastrukturun müasirləşdirilməsinə xüsusi təkan vermiş, vətəndaşların rahatlığı üçün respublikanın müxtəlif regionlarında, o cümlədən Şəkidə müasir penitensiar müəssisələr inşa olunmuşdur.

Korrupsiyaya qarşı barışmaz mövqeyinizə, o cümlədən son dövrdə verdiyiniz göstərişlərə uyğun olaraq, ədliyyə və məhkəmə sistemində bu sosial bəla ilə qəti mübarizə aparılır, təsirli tədbirlər görülür. Şəffaf prosedurlar əsasında yeni notarius korpusunun formalaşdırılması, nazirlik tərəfindən 20-dən çox elektron xidmətlərin göstərilməsi vətəndaş məmnunluğu doğurur. Xüsusilə qeyd etmək istərdim ki, Zati-alinizin təşəbbüsü ilə yaradılaraq əhalinin böyük rəğbətini qazanmış və ötən dövrdə 6 milyon insanın faydalandığı "ASAN xidmət" çərçivəsində 1 milyon yarım əməliyyat məhz ədliyyə orqanları tərəfindən həyata keçirilmişdir. Dövlət gənclər siyasətinizə uyğun olaraq, son 10 ildə ədliyyə orqanlarına açıq müsabiqələrlə 2 mindən çox gənc qulluğa qəbul edilmişdir.

Həmçinin hakimlərin ən şəffaf və obyektiv üsullarla seçimi nəticəsində 300-dən çox hazırlıqlı hüquqşünas şərəfli hakim vəzifəsinə təyin edilmiş, bu sahədə Azərbaycan təcrübəsi nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən bütün Avropa dövlətlərinə nümunə kimi tövsiyə olunmuşdur. Artıq bir çox xarici həmkarlarımız bu təcrübə ilə yerində tanış olub yararlanırlar. Çıxışımın sonunda, cənab Prezident, ədliyyə və məhkəmə sahəsində mütərəqqi islahatlara, habelə bu möhtəşəm məhkəmə kompleksinin açılışını həyata keçirdiyinizə görə Sizə bir daha dərin təşəkkürümü bildirirəm. Sizi əmin etmək istəyirəm ki, dövlətçilik amallarına daim sadiq olan ədliyyə və məhkəmə işçiləri fəaliyyətlərinin yüksək tələbləriniz səviyyəsində qurulması, mövcud nöqsanların aradan qaldırılması üçün bütün səy və bacarıqlarını səfərbər edəcək, ölkəmizin daha da qüdrətlənməsi naminə şərəfli işinizdə Sizə yardımçı olmaq üçün əllərindən gələni əsirgəməyəcəklər.

Diqqətinizə görə minnətdaram.

X X X

Ali Məhkəmənin sədri **Ramiz RZAYEV** çıxış edərək dedi:

Möhtərəm cənab Prezident.

Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olan Şəki şəhərində məhkəmə kompleksinin Sizin tərəfinizdən açılması dövlətimizin iqtisadi yüksəlişinə, vətəndaşların hüquq və azadlıqlarının təminatına xüsusi qayğısının təcəssümüdür.

Əsasını ulu öndər Heydər Əliyevin qoyduğu və Sizin uğurla davam etdirdiyiniz siyasət nəticəsində son illər ədalət mühakiməsinin inkişafında mühüm dəyişikliklər baş vermiş, vətəndaşların məhkəmələrə müraciət imkanları asanlaşmışdır. Məhkəmə sistemində ardıcıl olaraq həyata keçirilən islahatlar insan hüquqlarının müdafiəsini, ədalət mühakiməsinin müasir standartlara uyğunlaşdırılmasını, məhkəmə hakimiyyətinin müstəqilliyinin və səmərəliliyinin artırılmasını təmin etmişdir. Məhkəmə qərarlarının ədalətliliyi, ədalət mühakiməsinə çıxışın mümkünlüyü və məhkəmə fəaliyyətinin səmərəliliyi ictimaiyyətin məhkəmə hakimiyyətinə etimadını yaradan əsas amillərdir. Cəmiyyətdə qanunun aliliyinin və demokratik dəyərlərin bərqərar olması, həmçinin ədalət mühakiməsinin təməl prinsipləri olan həmin tələblərə riayət edilməsindən də asılıdır.

Ölkəmizdə həyata keçirilən islahatlar və qanunvericiliyin əsaslı şəkildə dəyişdirilməsi nəticəsində məhkəmələrdə baxılan işlərin sayı xeyli artmışdır. Yeni məhkəmə sistemimizin fəaliyyətə başladığı 2000-ci illə müqayisədə mülki xarakterli işlərin sayı 12 dəfə artaraq 250 mini keçmişdir. Fikrimcə, bu, həm də insanların məhkəmə hakimiyyətinə olan inamının artması ilə bağlıdır.

İnsan hüquqlarının təminatı baxımından çox mühüm bir institut olan inzibati məhkəmələr 2011-ci ildə ölkəmizdə fəaliyyətə başlamışdır. Vətəndaşlarla dövlət orqanları arasındakı münasibətlərdə yeni mərhələ olan inzibati məhkəmələrdə baxılan işlərdə mübahisələrin 85 faizi vətəndaşların xeyrinə həll olunaraq onların hüquqları bərpa edilmişdir. Ədalət mühakiməsinin səmərəliliyini təmin etmək məqsədilə Ali Məhkəmə tərəfindən mütəmadi olaraq məhkəmələrdə baxılan müxtəlif problemli məsələlər üzrə ümumiləşdirmələr aparılır, vahid məhkəmə təcrübəsi formalaşdırılır, qərarlar qəbul edilir və məhkəmələrə tövsiyələr verilir.

Son illər ərzində Ali Məhkəmənin Plenumu tərəfindən vətəndaşların azadlıq, mülkiyyət və sair hüquqlarının səmərəli təmin edilməsinə yönəlmiş 20-dək belə qərar qəbul olunmuşdur.

Ali Məhkəmədə hər həftə beynəlxalq məhkəmələrin təcrübəsinin öyrənilməsi ilə əlaqədar İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarları müzakirə edilir, o cümlədən apelyasiya və birinci instansiya məhkəmələrində hakimlərin davamlı tədrisi təşkil olunur.

Son illər məhkəmələrdə işlərə baxılmasında da əhəmiyyətli keyfiyyət dəyişiklikləri baş vermişdir. Yuxarı məhkəmələr tərəfindən ləğv olunan qərarların sayı azalaraq ölkə üzrə təqribən 5 faiz təşkil edir. Bu göstərici məhkəmə qərarlarının 95 faizinin sabitliyinin və ümumən hüquqi müəyyənliyin təmin edilməsi baxımından olduqca əhəmiyyətlidir.

Bundan başqa, məhkəmə fəaliyyətində şəffaflığın və aşkarlığın təmin edilməsi üçün məhkəmənin icraatındakı işlər barədə ətraflı məlumatlar və qərarların məhkəmələrin internet səhifələrində yerləşdirilməsi təmin olunur, bununla da istənilən şəxsin həmin məlumatları və qərarları əldə etmək imkanları asanlaşır.

Artıq 2009-cu ildən etibarən Ali Məhkəmədə, eləcə də bir sıra birinci və apelyasiya instansiyası məhkəmələrində müasir informasiya texnologiyalarına əsaslanan infrastruktur yaradılmışdır. Ali Məhkəmədə bütün məhkəmələrin istifadə edə biləcəkləri “Elektron kitabxana” layihəsi ilə bağlı işlər də yekunlaşmaq ərəfəsindədir. Ədalət mühakiməsinin keyfiyyətinin artırılması davamlı proses kimi qarşımızda əsas məqsəd olaraq durur. Biz demokratiya və insan hüquqlarına dair standartların inkişafını nəzərə alaraq mütəmadi olaraq qanunvericiliyin müvafiq sahələrinin təkmilləşdirilməsinə yönəlmiş təkliflərlə çıxış edirik.

Məhkəmədə işlərin idarə olunması sahəsində səmərəli mexanizmlərin yaradılmasına yönəlmiş işlər də davam etdirilir. Bununla bağlı olaraq, cənab Prezident, Sizin “Elektron məhkəmə” informasiya sisteminin yaradılması haqqında Sərəncamınız bilavasitə məhkəmələrin fəaliyyətində müasir informasiya texnologiyalarının tətbiqi ilə elektron kargüzarlıq və elektron sənəd dövriyyəsinin təmin edilməsinə, süründürməçilik və sui-istifadə hallarının qarşısının alınmasına, aşkarlıq və operativliyin təmin edilməsinə, məhkəmə qərarlarının icrasına nəzarətin səmərəliliyinin artırılmasına xidmət edir.

Möhtərəm cənab Prezident, məhkəmə fəaliyyətində müəyyən nöqsanlar da mövcuddur və biz onların aradan qaldırılması üçün çalışırıq. Məhkəmə fəaliyyətində korrupsiya hüquq pozuntularına şərait yaradan halların qarşısının alınması həmişə qarşımızda əsas məqsəd kimi durur. Bildirmək istəyirəm ki, biz öz fəaliyyətində belə pozuntulara yol vermiş hakimlər barədə Məhkəmə-Hüquq Şurası qarşısında məsələ qaldıraraq onları müvafiq intizam tənbehinə cəlb etmişik.

Möhtərəm Prezident, görəcəyimiz işlər çoxdur. Bu, məhkəmə hakimiyyətinə olan inam və etimadı daha da möhkəmləndirəcək. Əsas məqsədimiz qanunun aliliyinə nail olmaq, ədalət mühakiməsinin Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş insan hüquq və azadlıqlarının müdafiəsi naminə həyata keçirilməsini bundan sonra da təmin etməkdir.

Diqqətinizə görə təşəkkür edirəm.

X X X

Görüşə yekun vuran Prezident **İlham ƏLİYEV** dedi:

Bir daha qeyd etmək istəyirəm ki, bu kompleks doğrudan da göz oxşayır. Həm memarlıq, həm funksionallıq baxımından ən yüksək standartlara cavab verir. Onu da qeyd etməliyəm ki, Bakıdan sonra birinci belə böyük kompleks Şəki şəhərində yaradılıbdır. İndi burada məruzədə deyildi ki, artıq bir çox komplekslərin tikintisi nəzərdə tutulur. Ancaq birinci böyük kompleks Şəki şəhərində istifadəyə verilib. Bu da təsadüfi deyil. Çünki Şəki qədim Azərbaycan diyarıdır. Şəkinin çox zəngin tarixi, mədəniyyəti vardır. Şəki nəinki Azərbaycanda, dünya miqyasında gözəlliyi ilə seçilən şəhərlərdəndir. Bir çox şəhərlər memarlıq, yaxud da şəhərsalma baxımından bir-birinə oxşayır. Şəki elə şəhərdir ki, heç bir şəhərə oxşamır. Buranın gözəl təbiəti gözəl memarlığı və şəhərsalma prinsipləri ilə tamamlanır. Şəkinin çox zəngin tarixi, mədəniyyəti vardır. Şəki bizim böyük sərvətimizdir. Ona görə təsadüfi deyil ki, birinci kompleks məhz Şəki şəhərində istifadəyə verilir. Bu kompleks şəhərə əlavə yaraşıq verəcəkdir. Şəkiyə mənim səfərlərim müntəzəm olaraq həyata keçirilir. Bu, Prezident kimi Şəkiyə yeddinci səfərimdir. Ondan əvvəl də dəfələrlə Şəkidə olmuşam. Burada gedən işlərə daim diqqət göstərirəm. İstəyirəm ki, bütün infrastruktur, sosial-iqtisadi layihələr daha da sürətlə getsin. Həm də yol infrastrukturu. Bu gün Şəki-Qax avtomobil yolunun açılışını qeyd etdik. Siz yaxşı bilirsiniz ki, əvvəllər buradan Qaxa getmək üçün təxminən 80 kilometr yolu qət etmək lazim idi. Bu gün isə 35 kilometrlik yeni yol istifadəyə verildi. Tapşırıq verildi ki, yolun davamı da olmalıdır – Zaqatalaya, ondan sonra Balakənə qədər. Artıq Şəki-Bakı yolu da ən yüksək standartlara cavab verir.

İnfrastruktur layihələri icra edilir. Qazlaşdırma prosesi gedir, ilin sonuna qədər daha da sürətlə gedəcək. Ümumi qazlaşdırma ilin sonuna qədər təxminən 80-85 faizə çatmalıdır. Bir

məsələ məni bir qədər narahat edir. O da içməli su layihəsinin hələ də həll olunmamasıdır. Bizdən asılı olmayan səbəblərə görə belə vəziyyət yaranıb.

Bildiyiniz kimi, içməli su, kanalizasiya layihələri bütün şəhər və rayonlarımızda icra edilir. Onların bir çoxu dövlət büdcəsi vəsaiti hesabına icra edilir və bu halda heç bir yubanmaya da yol verilmir. Ancaq bəzi layihələr beynəlxalq maliyyə qurumları tərəfindən maliyyələşdirilir və bizdən asılı olmayan səbəblərə görə bəzi hallarda yubanmalar da olur. Əfsuslar olsun, hələ ki, Şəkinin içməli su problemi öz həllini tapmayıb. Mənə verilən məlumata görə, bu layihənin başa çatması 2017-ci ildə gözlənilir. Hesab edirəm ki, biz gələn il bu layihəni icra etməliyik. Çünki Şəki kimi şəhərdə əhali 24 saat fasiləsiz təmiz içməli su ilə təmin edilməlidir. Hazırda bu, belə deyil və Şəki sakinləri bundan əziyyət çəkirlər. Bu, dözülməz haldır. Artıq göstərişlər verildi ki, müvafiq qurumlar bu işi sürətlə icra etsinlər və tezliklə bu məsələ öz həllini tapsın.

Digər infrastruktur layihələri ilə bağlı Şəki şəhərində və ətraf kəndlərdə lazımi tədbirlər görüləcək. Kənd yolları, elektrik enerjisi ilə təchizat, qeyd etdiyim kimi, qazlaşdırma layihələri və əlbəttə ki, iş yerlərinin yaradılması. Şəkinin çox böyük kənd təsərrüfatı, sənaye potensialı var. Əlbəttə ki, turizm potensialı da çox böyükdür. Şəkiyə gələn turistlərin axını dayanmır. Çox istərdim ki, daha da çox qonaq gəlsin, görsün ki, Azərbaycanda belə gözəl şəhər var. Şəki şəhəri tarixi, mədəni abidədir.

Gələcəkdə də Şəki şəhərinin və rayonun inkişafı ilə bağlı lazımi göstərişlər veriləcək. Bir daha demək istəyirəm ki, ölkəmizin maliyyə vəziyyəti sabitdir, müsbətdir. Maddi problemlərimiz yoxdur. Əlbəttə, neftin qiymətinin iki dəfə aşağı düşməsi bizim bəzi planlarımıza maneçilik törədib. Ancaq əsas sosial və infrastruktur layihələri icra edilir. Bizim kifayət qədər böyük maddi maliyyə bazamız vardır. Heç bir maliyyə problemimiz yoxdur və əminəm ki, Azərbaycan iqtisadiyyatı 2016-cı ildə də inkişaf edəcək, bütün rayonlar, şəhərlər, o cümlədən Şəki şəhəri daha da gözəlləşəcək, abadlaşacaq.

Mən şəkililəri bir daha bu gözəl hadisə münasibətilə təbrik etmək istəyirəm, onlara yeni uğurlar arzulayıram. Sağ olun.

Sonra xatirə şəkli çəkdirildi.

Daha sonra Azərbaycan Prezidenti İlham Əliyev Şəki rayon qeydiyyat şöbəsinin inzibati binasında yaradılan şəraitlə tanış oldu.

## Ali Məhkəmənin məhkəmə sistemində yeri, səlahiyyəti, tərkibi və strukturu

Azərbaycan Respublikası Konstitusiyasının 131-ci maddəsinə əsasən Azərbaycan Respublikasının Ali Məhkəməsi ümumi və ixtisaslaşdırılmış məhkəmələrin icraatına aid edilən mülki, cinayət və digər işlər üzrə ali məhkəmə orqanıdır.

Ali Məhkəmə mülki, inzibati və iqtisadi mübahisələrə dair işlər üzrə, cinayət işləri və cinayət təqibi ilə bağlı digər materiallar üzrə kassasiya qaydasında ədalət mühakiməsini həyata keçirir.

Ali Məhkəmə Azərbaycan Respublikasının Bakı şəhərində təşkil edilmişdir və onun yurisdiksiyası Azərbaycan Respublikasının bütün ərazisinə şamil edilir.

Ali Məhkəmə Plenumdan və dörd məhkəmə kollegiyalarından ibarətdir.

“Məhkəmələr və Hakimlər haqqında” Azərbaycan Respublikasının qanununa dəyişikliklər və əlavələr edilməsi barədə” Azərbaycan Respublikasının 22 iyun 2010-cu il tarixli Qanununa əsasən Ali Məhkəmənin “mülki işlər üzrə, iqtisadi mübahisələrə dair işlər üzrə, cinayət işləri və hərbi məhkəmələrin işləri üzrə kollegiyalarının” adları dəyişdirilərək müvafiq surətdə “mülki kollegiya, inzibati-iqtisadi kollegiya, cinayət kollegiyası və hərbi kollegiya” adlandırılmışdır.

Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun “Azərbaycan Respublikası Ali Məhkəməsi məhkəmə kollegiyasının tərkibinin təşkili barədə” 11 oktyabr 2013-cü il tarixli qərarına əsasən məhkəmə kollegiyalarında işlərə baxılması üçün hər biri üç hakimdən ibarət olan məhkəmə tərkibləri, o cümlədən:

**Mülki kollegiya** - kollegiya sədrindən və on yeddi hakimdən ibarət altı məhkəmə tərkibi,

**İnzibati-iqtisadi kollegiya** - kollegiya sədrindən və doqquz hakimdən ibarət üç məhkəmə tərkibi,

**Cinayət kollegiyası** - kollegiya sədrindən və altı hakimdən ibarət iki məhkəmə tərkibi,

**Hərbi kollegiya** - kollegiya sədrindən və üç hakimdən ibarət bir məhkəmə tərkibi müəyyən edilmişdir.

Ali Məhkəmənin hakimlərinin sayı Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilir və onlar bu vəzifəyə Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təyin edilir.

Ali Məhkəmə 2014-cü ildə Ali Məhkəmənin sədrindən, məhkəmə kollegiyalarının sədrlərindən və hakimlərindən - cəmi 40 hakimdən ibarət tərkibdə fəalliyyət göstərmişdir.

Ali Məhkəmənin Plenumuna onun bütün hakimləri daxildir.

Ali Məhkəmənin Plenumu üzvlərinin üçdə iki hissəsi iştirak etdikdə Plenum səlahiyyətli sayılır.

Plenum baxılan məsələlər üzrə qərar qəbul edir.

Ali Məhkəmənin Plenumunun qərarları açıq səsvermə yolu ilə səsvermədə iştirak edənlərin səs çoxluğu ilə qəbul edilir. Plenumun üzvləri məhkəmə işləri üzrə səsvermədə bitərəf qala bilməzlər.

Məhkumun vəziyyətini ağırlaşdıran əsaslara görə məhkəmə qərarları, bəraət hökmü, bəraətverici əsaslarla cinayət işinin icraatına xitam verilməsi haqqında məhkəmə qərarları səsvermədə iştirak edən Plenum üzvlərinin üçdə iki səs çoxluğu ilə ləğv edilə bilər.

Ali Məhkəmənin yanında Elmi-Məsləhət Şurası fəaliyyət göstərir.


Azərbaycan Respublikasının Ali Məhkəməsi
Ali Məhkəmənin Sədri
Ali Məhkəmənin sədr müavini
Cinayət kollegiyası 7 hakim
Mülki kollegiya 18 hakim
İnzibati-iqtisadi kollegiya 10 hakim
Hərbi kollegiya 4 hakim
Ali Məhkəmənin aparatı
Ali Məhkəmənin işlər idarəsi
Ali Məhkəmə aparatı rəhbərinin xidməti
Ali Məhkəmənin Plenumunun katibliyi
Cinayət kollegiyasının katibliyi
Mülki kollegiyanın katibliyi
İnzibati-iqtisadi kollegiyanın katibliyi
Hərbi kollegiyanın katibliyi
Dövlət qulluğu və kadr məsələləri sektoru
Məhkəmə təcrübəsinin ümumiləşdirilməsi və məhkəmə statistikasının təhlili şöbəsi
Analitik və qanunvericiliyin sistemləşdirilməsi şöbəsi
Beynəlxalq əlaqələr şöbəsi
İnsan hüquqları və ictimaiyyətlə əlaqələr şöbəsi
Vətəndaşların qəbulu və müraciətlərlə iş şöbəsi
İcra şöbəsi
İnformasiya Texnologiyaları şöbəsi
Ali Məhkəmənin xatirə muzeyi
Ali Məhkəmənin kitabxanası
Ali Məhkəmənin mətbəəsi
İşlər müdirinin xidməti
Maliyyə təsərrüfat şöbəsi
Arxiv
Ali Məhkəmənin yeməkxanası

# Ali Məhkəmədə 2015-ci ildə baxılmış işlər haqqında ümumi məlumat




2015-ci ildə Ali Məhkəmənin məhkəmə kollegiyalarında və Plenumun icraatında cəmi **11 095** iş, o cümlədən:

-Cinayət kollegiyasında **2 609** nəfər haqqında **2 307** iş,
-Hərbi kollegiyada **175** nəfər haqqında **154** iş,
-Mülki kollegiyada **6 314** iş,
-İnzibati-iqtisadi kollegiyada (inzibati) **1 885** iş,
-İnzibati-iqtisadi kollegiyada (iqtisadi) **423** iş,
-Plenumda isə **12** iş olmuşdur.

2015-ci ildə Ali Məhkəmənin məhkəmə kollegiyalarında və Plenumun icraatında olan **11 095 işdən cəmi 9 404 işə (84,8%) baxılmışdır.** Onlardan:

- Cinayət kollegiyasında **2 110** nəfər haqqında **1 856** işə,
- Hərbi kollegiyada **151** nəfər haqqında **135** işə,
- Mülki kollegiyada **5 657** işə,
- İnzibati-iqtisadi kollegiyada (inzibati) **1 399** işə,
- İnzibati-iqtisadi kollegiyada (iqtisadi) **345** işə,
- Plenumda isə 1**2** işə baxılmışdır.

Ali Məhkəmədə 2015-ci ildə baxılmış işlərin sayı 2014-cü il ilə müqayisə etdikdə **736** iş, **yəni 8,5% işin** artmaşı görünür.

Aparılmış təhlil nəticəsində müəyyən edilmişdir ki, 2014-cü il ilə müqayisədə 2015-ci ildə Ali Məhkəmədə baxılan işlərin sayı:

-Cinayət kollegiyasında **29 iş, ( 1,6%) artmış;**
-Hərbi kollegiyada **28 iş ( 17,2%) azalmış;**
-Mülki kollegiyada **746 iş (15,2%) artmış;**
-İnzibati-iqtisadi kollegiyada (inzibati) **50 iş (3,7%) artmış;**
-İnzibati-iqtisadi kollegiyada (iqtisadi) **51 iş ( 12,9%) azalmış;**




-Plenumda isə **10 iş (45,5%) azalmışdır.**

Məhkəmə statistikasına dair məlumatlardan görünür ki, Respublikanın birinci instansiya ümumi və hərbi məhkəmələri tərəfindən 2015-ci ildə **13.270 nəfər**, o cümlədən birinci instansiya ümumi məhkəmələr tərəfindən **11.951 nəfər,** hərbi məhkəmələr tərəfindən isə **1.319 nəfər** məhkum edilmiş, bu müddətdə **69 nəfər** barəsində bəraət hökmü çıxarılmışdır.

Respublikanın birinci instansiya məhkəmələri tərəfindən 2015-ci ildə ümumi məhkum edilənlərin sayı 2014-cü ilə nisbətən **72 nəfər (0,5%)** azalmışdır.

Qeyd olunan müddətdə Respublikanın birinci instansiya ümumi və hərbi məhkəmələri tərəfindən ümumi məhkum edilənlərdən **4.109 nəfər** barəsində hökmlərə apellyasiya şikayəti və protesti əsasında müvafiq apellyasiya məhkəmələri tərəfindən baxılmışdır ki, bu da respublikanın birinci instansiya ümumi və hərbi məhkəmələri tərəfindən baxılan cinayət işləri üzrə məhkum edilənlərin cəmi **31% faizini** təşkil edir.

Məlumatın əhatə etdiyi dövrdə Apellyasiya Məhkəmələrində cinayət mühakimə icraatı qaydasında baxılmış işlər üzrə çıxarılmış **4109 nəfər** haqqındakı hökm və qərarlardan **2261 nəfər** barəsində işə Ali Məhkəmədə kassasiya şikayəti və protesti əsasında baxılmışdır ki, bu da respublikanın apellyasiya məhkəmələrində 2015-ci ildə baxılmış cinayət işləri üzrə məhkum edilənlərin cəmi 55 faizini təşkil edir.

Göründüyü kimi, 2015-ci ildə respublikanın birinci instansiya ümumi və hərbi məhkəmələri tərəfindən baxılmış cinayət işləri üzrə məhkum olunmuş şəxslər barəsindəki hökmlərin **31** faizinin qanuniliyi apellyasiya qaydasında, apellyasiya məhkəmələrində cinayət mühakimə icraatı qaydasında baxılmış işlər üzrə çıxarılmış hökm və qərarların **55** faizinin qanuniliyi kassasiya qaydasında yoxlanılmışdır**.**

Bundan əlavə, Respublikanın birinci instansiya ümumi və inzibati-iqtisadi məhkəmələri tərəfindən 2015-ci ildə **248.956** işə, o cümlədən **231476** mülki işlərə, **17480** inzibati-

iqtisadi  işlərə baxılmışdır ki, bu da bütövlükdə 2014-cü ildə baxılmış mülki və inzibati-iqtisadi işlərdən **20.277  (8,9%)** iş çoxdur.

Məlumatın əhatə etdiyi dövrdə, Respublikanın birinci instansiya ümumi və  inzibati-iqtisadi məhkəmələri tərəfindən qətnamə və qərardad çıxarılmaqla  **248956** işə baxılmışdır. Həmin işlər  üzrə məhkəmə qətnamələrindən və qərardadlarından verilmiş apellyasiya şikayəti əsasında müvafiq apellyasiya məhkəmələrində  **18777** işə baxılmışdır ki, bu da birinci instansiya ümumi və inzibati-iqtisadi məhkəmələrində  baxılmış  işlərin cəmi  **7,5** faizini təşkil edir.

Qeyd olunan müddətdə respublikanın apellyasiya məhkəmələrində baxılmış mülki və inzibati-iqtisadi işlər üzrə  qəbul edilmiş qətnamə və qərarlardan verilmiş kassasiya şikayətləri əsasında **7.401** işə Ali Məhkəmənin müvafiq kollegiyalarında kassasiya qaydasında baxılmışdır ki, bu da apellyasiya qaydasında baxılmış mülki və inzibati-iqtisadi işlərin  **39,4** faizini  təşkil edir.

Göründüyü kimi, Respublikanın birinci instansiya mülki və inzibati-iqtisadi məhkəmələri tərəfindən 2015-ci ildə baxılmış mülki və inzibati-iqtisadi işlər üzrə qəbul edilmiş yekun məhkəmə qərarlarının cəmi  **7,5** faizinin  qanuniliyi apellyasiya qaydasında, apellyasiya instansiyası məhkəmələrinin qətnamə və qərarlarının isə  **39,4** faizinin qanuniliyi kassasiya qaydasında yoxlanılmışdır.

## Ali Məhkəmənin kollegiyalarında və Plenumunda icraat

Ali Məhkəmənin məhkəmə kollegiyalarında ədalət mühakiməsi işlərə (materiallara) qanunvericilikdə nəzərdə tutulmuş qaydada və hədlərdə kassasiya qaydasında baxılmaqla həyata keçirilir.

**Ali Məhkəmənin Mülki və İnzibati-İqtisadi Kollegiyalarında** apellyasiya instansiyası məhkəmələrinin mülki və inzibati-iqtisadi kollegiyalarının qətnamə və qərardadlarından verilən kassasiya şikayətinə və dövlət mənafeyinin müdafiəsi məqsədi ilə iddia qaldırmış prokurorun kassasiya protestinə, həmçinin işdə iştirak etməyə cəlb olunmayan, lakin məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən apellyasiya instansiyası məhkəmələrinin inzibati-iqtisadi mübahisələrə dair işlər üzrə məhkəmə kollegiyalarının qətnamə və qərardadlarından Ali Məhkəmənin sədrinin verdiyi təqdimata baxılır.

**Ali Məhkəmənin Cinayət və Hərbi Kollegiyalarında** apellyasiya instansiyası məhkəmələrinin cinayət kollegiyalarının çıxardıqları hökm və qərarlardan verilən kassasiya şikayətinə və ya kassasiya protestinə, həmçinin işdə iştirak etməyə cəlb olunmayan, lakin apellyasiya instansiyası məhkəməsinin cinayət kollegiyasının hökm və ya digər yekun aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən Ali Məhkəmənin sədrinin verdiyi təqdimata baxılır.

**Ali Məhkəmənin Plenumunda işlərə** qanunla müəyyən edilmiş hallarda və qaydada Ali Məhkəmə sədrinin təqdimatı, Azərbaycan Respublikası Baş Prokurorunun protesti və ya müdafiə tərəfin şikayəti əsasında əlavə kassasiya qaydasında və ya qanuni qüvvəyə minmiş məhkəmə aktlarına hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar və yeni açılmış hallar üzrə icraat qaydasında yenidən baxılır.

# Ali Məhkəmənin kollegiyalarında 2015-ci ildə ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyətinə dair məlumat:

## 1. Ali Məhkəmənin Mülki kollegiyası

Ali Məhkəmənin Mülki kollegiyasında (bundan sonra **«MK»**) apellyasiya instansiyası məhkəmələrinin mülki işlər üzrə məhkəmə kollegiyalarının qətnamə və qərardadlarından verilən kassasiya şikayətinə və dövlət mənafeyinin müdafiəsi üçün iddia qaldırmış prokurorun kassasiya protestinə, həmçinin işdə iştirak etməyə cəlb olunmayan, lakin məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən apellyasiya instansiyası məhkəmələrinin mülki işlər üzrə məhkəmə kollegiyalarının qətnamə və qərardadından Ali Məhkəmənin sədrinin verdiyi təqdimata baxılır.




**2015-ci ildə MK-nın icraatına** 6314 **iş daxil olmuşdur ki, bu da** 2014-**cü ildə icraatda olmuş** 5656 **mülki işdən 658 iş, yəni** 11,6 % **çoxdur.**

Hesabat dövründə MK-nın icraatında olan 6314 mülki işdən 5657 (89,6%) işə yekun məhkəmə qərarı çıxarılmaqla baxılmış, 48 (0,8%) iş **baxılmadan qaytarılmış,** 21 (0,1%) iş baxışdan çıxarılmış, 588 (9,3%) iş isə 2016-cı ilə qalıq keçirilmişdir.

MK-da 2014-cü ildə yekun məhkəmə qərarı çıxarılmaqla **4911** mülki işə baxılmışdırsa, 2015-ci ildə belə işlərin sayı **746 (15,2%) artaraq, 5657** mülki iş təşkil etmişdir.

2015-ci ildə MK-nın icraatında olan işlərin təhlili ilə müəyyən edilir ki, yekun məhkəmə qərarı çıxarılmaqla baxılan **5 657** mülki işlərdən:

- **395 (7%)** iş **ailə münasibətləri üzrə mübahisələrə dair** ;
- **103 (1,8%)** iş **əmək münasibətləri üzrə mübahisələrə dair işlər üzrə**;
- **618 (10,9%)** iş **mənzil mübahisələri üzrə**;

**- 399 (7,1%)** iş **mülkiyyət hüququ ilə əlaqadar mübahisələr üzrə** ;

**- 301 (5,3%)** iş **torpaq mübahisələri üzrə;**

**- 339 (6%)** iş **borc müqaviləsi üzrə mübahisələrə dair**;

**- 682 (12%) iş kredit müqaviləsi və bank əmanəti, bank hesabatı müqaviləsi üzrə;**

**- 86 (1,5%) iş sığorta müqaviləsi üzrə;**

**- 102 (1,8%) vərəsəlik hüququ ilə mübahisələr üzrə;**

**- 168 (3%) aliment alınması tələbləri üzrə;**

**- 63 (1,1%) iş müvafiq icra hakimiyyəti və yerli özünüidarə orqanlarının, sair orqan və təşkilatların, onların vəzifəli şəxslərinin qərarlarından və hərəkətlərindən (hərəkətsizliklərindən) olan ərizələr üzrə;**

**- qalan 2 401 (42,4%) işlər isə digər məsələlərlə əlaqədar olmuşdur**.

MK-da 2015-ci ildə 5 657 işə kassasiya qaydasında baxılmasının nəticələri:

-4 374 (77,3%) iş üzrə qətnamə və ya qərardad dəyişdirilmədən saxlanılmışdır;

Cəmi 1 159 (20,5%) iş üzrə qətnamə və ya qərardad ləğv edilmişdir, onlardan:

- 1 064 (18,8%) iş üzrə qətnamə və ya qərardad ləğv edilərək iş yenidən apellyasiya instansiyası məhkəməsinə qaytarılmış;

- 90 (1,6%) iş üzrə qətnamə və ya qərardad ləğv edilərək iş üzrə yeni qərar qəbul edilmişdir;

- 5 (0,1%) iş üzrə qətnamə ləğv edilərək iş üzrə icraata xitam verilmişdir;

- 58 (1%) iş üzrə qətnamə və qərardad dəyişdirilmiş;

- 66 (1,2%) iş üzrə isə kassasiya şikayətindən şikayətçi imtina edildiyi üçün kassasiya icraatına xitam verilmişdir.

2015-ci ildə kasasiya şikayəti ilə müraciət edənlər tərəfindən **28 216 manat** dövlət rüsumu ödənilmişdir.

2015-ci il ərzində Məhkəmə Kollegiyası tərəfindən birinci və apellyasiya instansiyalarında mülki işlərə baxılarkən qanunvericiliyin tətbiqi ilə əlaqədar konkret işlər üzrə aşağı instansiya məhkəmələrinə və müvafiq orqanlara yol verilmiş qüsurlar barədə **36 məktub və icmal məktub** göndərilmişdir.

Ali Məhkəmənin Mülki Kollegiyasında 2015-ci ildə 15 xüsusi qərardad qəbul edilmişdir.

Ali Məhkəmənin MK-da kassasiya qaydasında baxılmış işlərə dair məlumatlar apellyasiya instansiyası məhkəmələri üzrə aşağıdakı cədvəldə əks olunmuşdur.

***Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasında 2015-ci ildə apellyasiya instansiyası məhkəmələrinin qətnamə və qərardadlarına kassasiya qaydasında baxılma nəticələri haqqında***

**M Ə L U M A T**

| Sıra | Apellyasiya instansiyası məhkəmələrinin adı | Cəmi baxılıb | Qüvvədə saxlanılıb | Cəmi ləğv olunub | Onlardan, ləğv olunaraq | | | | Kasasiya icraatına xitam verilib | Dəyişdirilib | Xüsusi qərar |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Yeni apellyasiya baxışı | Yeni qərar | Baxılmamış saxlanılıb | İş üzrə icraata xitam verilib | | | |
| 1 | **Bakı** Apellyasiya Məhkəməsi | 3 371 | *2 624* | *665 19,7%* | *603 17,9%* | *59 1,8%* | - | *3 0,1%* | *47* | *35* | 12 |
| 2 | **Gəncə** Apellyasiya Məhkəməsi | 728 | *554* | *167 22,9%* | *159 21,8%* | *8 1,1%* | - | - | *4* | *3* | - |
| 3 | **Şırvan** Apellyasiya Məhkəməsi | 483 | *386* | *83 17,2%* | *76 15,7%* | *7 1,4%* | - | - | 5 | *9* | 2 |
| 4 | **Sumqayıt** Apellyasiya Məhkəməsi | 625 | *452* | *160 25,6%* | *150 24%* | *10 16%* | - | - | 8 | *5* | 1 |
| 5 | **Şəki** Apelyasiya Məhkəməsi | 435 | *345* | *82 18,9%* | *74 17%* | 6 1,4% | - | *2 0,5%* | 2 | 6 | - |
| 6 | **Naxçıvan MR Ali Məhkəməsi** | 14 | *12* | *2 14,3%* | *2 14,3%* | - | - | - | - | - | - |
| 7 | **AR** Apellyasiya Məhkəməsi | 1 | *1* | - | - | - | - | - | - | - | - |
| | **Cəmi** | 5 657 | *4 374 77,3%* | *1 159 20,5%* | *1 064 18,8%* | *90 1,6%* | - | *5 0,1%* | *66 0,7%* | *58 1%* | 15 |

**QEYD:** Statistik məlumatların təhlili göstərir ki, apelyasiya instansiyası məhkəmələrinin ləğv edilmiş qətnamə və ya qərardadlarının sayı 2015-ci ildə 1 159 olduğu halda, bu rəqəm 2014-cü ildə **960 iş** olmuş,beləliklə **199 (20,7%) iş** armışdır.

2015-ci ildə Ali Məhkəmənin Mülki Kollegiyasının icraatında Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən Azərbaycan Respublikasında xarici məhkəmələrin qətnaməsinin tanınması və icrası barədə 129 ərizə olmuşdur. Onlardan 125 ərizə 2015-ci ildə daxil olmuş, 115 ərizəyə baxılmışdır, 14 ərizə 2016-cı ilə qalıq kimi keçmişdir.




2014-cü ildə isə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən mülki kollegiyanın icraatında Azərbaycan Respublikasında xarici məhkəmələrin qətnaməsinin tanınması və icrası barədə 96 ərizə daxil olmuşdur. Onlardan: 8 ərizə 2014-cü ildən qalıq kimi keçmiş, 88 ərizə 2014-cü ildə daxil olmuş, 95 ərizəyə baxılmış, 1 ərizə 2015-ci ilin növbəti ayına qalıq kimi keçmişdir.

2015-ci ilin müvafiq dövrü ilə 2014-cü ili müqayisə etdikdə görünür ki, Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən mülki kollegiyanın icraatında Azərbaycan Respublikasında xarici məhkəmələrin qətnaməsinin tanınması və icrası barədə icraatda 33(34,4%) ərizə artmışdır.

Məlumatın əhatə etdiyi dövrdə Ali Məhkəmənin Mülki Kollegiyasının hakimləri bir sıra xarici ölkələrdə ezamiyyətdə olmuş, seminar və konfranslarda iştirak etmiş, mətbuatda məqalələrlə çıxış etmişlər.

O cümlədən:

- Hakim Ə.Mirzəliyev Bakı və Şəki Apellyasiya Məhkəmələrində təşkil olunmuş seminarlarda “Mülki işlərə baxılarkən yol verilən xarakterik nöqsanlar və onların həlli yolları” barədə

- Hakim V.İbayev Ədliyyə Akademiyası və Ümumi məhkəmə hakimlərinin ictimai birliyinin təşkil etdiyi “Avropa İnsan Hüquqları Konvensiyası və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququ” mövzusunda tədris kursunda “Mülkiyyət hüququnun müdafiəsi: Avropa İnsan Hüquqları Konvensiyasından irəli gələn öhdəliklər”, Ədliyyə Akademiyasının tədris kurslarında “İnsan Hüquqları üzrə Avropa Konvensiyasının 6-cı maddəsinin (ədalətli məhkəmə araşdırması hüququ) prosessual aspektləri” mövzularında çıxışlar etmişlər.

## 2. Ali Məhkəmənin İnzibati-İqtisadi kollegiyası




Ali Məhkəmənin İnzibati-iqtisadi kollegiyasında (bundan sonra «**İİK**») apellyasiya instansiyası məhkəmələrinin inzibati-iqtisadi mübahisələrə dair işlər üzrə məhkəmə kollegiyalarının qətnamə, qərar və qərardadlarından verilən kassasiya şikayətinə və işdə iştirak etməyə cəlb olunmayan, lakin məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən apellyasiya instansiyası məhkəmələrinin İnzibati-iqtisadi kollegiyasında qətnamə və qərardadından Ali Məhkəmənin sədrinin verdiyi təqdimata baxılır.

2015-ci ildə İİK-nın icraatına 2 308 iş daxil olmuşdur ki, bu da 2014-cü ildə icraatda olmuş 2 138 işdən 170 iş, yəni (7,9%) **çoxdur.**

İİK-nın icraatında olan **2 308 işdən 1 744 (75,6%) işə** yekun məhkəmə qərarı çıxarılmaqla baxılmış, **16 (0,7%) iş** baxılmadan geri qaytarılmış, **124 (5,4%) iş** üzrə kassasiya şikayəti mümkün sayılmamış, **424 (18,3%) iş** isə 2016-cı ilin yanvar ayına qalıq keçirilmişdir.

İİK-da 2014-cü ildə yekun məhkəmə qərarı çıxarılmaqla **1 745** işə baxılmışdırsa, 2015-ci ildə belə işlərin sayı **1 (0,05%) azalaraq, 1 744** iş təşkil etmişdir.

**İİK-da** 2015-ci ildə yekun məhkəmə qərarı çıxarılmaqla baxılan işlərrin təhlili göstərir ki, **1744 işdən:**

- **145 (8,3%)** iş **əmək münasibətləri üzrə mübahisələrə dair**;
- **57 (3,3%)** iş **mənzil mübahisələri üzrə**;
- **101 (5,8%)** iş **mülkiyyət hüququ ilə əlaqadar mübahisələr üzrə** ;
- **140 (8,1%)** iş **torpaq mübahisələri üzrə**;
- **251(14,4%) iş vergi ödəmələri;**
- **56 (3,2%) iş kredit müqaviləsi və bank əmanəti, bank hesabatı müqaviləsi üzrə;**
- **19 (1%) iş sığorta müqaviləsi üzrə;**
- **92 (5,3%) iş seçki hüquqlarının müdafiəsi barədə ərzələr üzrə**;

**- 258 (14,8%) iş müvafiq icra hakimiyyəti və yerli özünüidarə orqanlarının, sair orqan və təşkilatların, onların vəzifəli şəxslərinin qərarlarından və hərəkətlərindən (hərəkətsizliklərindən) olan ərizələr üzrə;**

**- qalan 625(35,8%) iş isə digər məsələlərlə əlaqədar olmuşdur.**

İİK-da cəmi kassasiya qaydasında baxılmış 1744 iş üzrə çıxarılmış yekun məhkəmə qərarlarından:

- 1198 (68,7%) iş üzrə qətnamə, qərar və ya qərardad dəyişdirilmədən saxlanılmışdır;




- 506 (29%) iş üzrə qətnamə və ya qərardad ləğv edilmişdir, onlardan:

- 342 (19,6%) iş **üzrə qətnamə və ya qərardad ləğv edilərək iş yenidən apellyasiya instansiyası məhkəməsinə qaytarılmış;**

**-** 56 (3,2%) iş **üzrə qətnamə və ya qərardad ləğv edilərək iş üzrə yeni qərar qəbul edilmiş;**

**-** 89 (5,1%) iş **üzrə qətnamə və ya qərardad ləğv edilərək iş üzrə iddia (ərizə) baxılmamış saxlanılmış və ya mümkün sayılmamış;**

**-** 19 (1,1%) iş **üzrə qətnamə və ya qərardad ləğv edilərək iş üzrə icraata xitam verilmiş;**

- 21 (1,2%) iş üzrə qətnamə **və ya qərardad** dəyişdirilmiş;

- 19 (1,1%) iş üzrə isə kassasiya icraatına xitam verilmişdir.

2015-ci ildə kasasiya şikayəti ilə müraciət edənlər tərəfindən **6.159 manat** dövlət rüsumu ödənilmişdir.

**Bu məlumatlar apellyasiya məhkəmələri üzrə aşağıdakı cədvəldə əks olunmuşdur.**

***Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati-İqtisadi Kollegiyasında 2015-ci ildə apellyasiya instansiyası məhkəmələrinin qətnamə və qərardadlarına kassasiya qaydasında baxılma nəticələri haqqında***

**M Ə L U M A T**

| Apellyasiya instansiyası məhkəməsinin adı | Cəmi baxılıb | Qüvvədə saxlanılıb | Cəmi ləğv olunub | Ondan: Yeni apelyasiya *Baxışına göndərildi* | Ondan: Yeni qərar | Ondan: İddia mümkün sayılmamışdır | Ondan: İş üzrə icraata xitam verilib | Kasasiya icraatına xitam verilib | Dəyişdirilib | Xüsusi qərar |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Bakı** Apellyasiya Məhkəməsi | 1.186 | *812* | *348*<br>*29,3%* | *233*<br>*19,6%* | *43*<br>*3,6%* | *57*<br>*4,8%* | *15*<br>*1,3%* | *12* | *14* | - |
| **Gəncə** Apellyasiya Məhkəməsi | 153 | *94* | *55*<br>*35,9%* | *40*<br>*26,1%* | *5*<br>*3,3%* | *9*<br>*5,9%* | *1*<br>*0,6%* | *2* | *2* | - |
| **Şırvan** Apellyasiya Məhkəməsi | 132 | *96* | *34*<br>*25,8%* | *19*<br>*14,4%* | *3*<br>*2,3%* | *11*<br>*8,3%* | *1*<br>*0,8%* | *1* | *1* | - |
| **Sumqayıt** Apellyasiya Məhkəməsi | 146 | *104* | *36*<br>*24,6%* | *26*<br>*17,8%* | *3*<br>*2%* | *7*<br>*4,8%* | - | *3* | *3* | - |
| **Şəki** Apellyasiya Məhkəməsi | 121 | *88* | *31*<br>*25,6%* | *22*<br>*18,2%* | *2*<br>*1,6%* | *5*<br>*4,2%* | *2*<br>*1,6%* | *1* | *1* | - |
| **Naxçıvan MR** Ali Məhkəməsi | 6 | *4* | *2*<br>*33,3%* | *2*<br>*33,3%* | - | - | - | - | - | - |
| **Cəmi** | 1.744 | *1.198* | *506*<br>*29%* | *342*<br>*19,6%* | *56*<br>*3,2%* | *89*<br>*5,1%* | *19*<br>*1,1%* | *19*<br>*1,1%* | *21*<br>*1,2%* | - |

**QEYD:** Statistik məlumatların müqayisədən görünür ki, apellyasiya instansiyası məhkəmələrinin ləğv edilmiş qətnamə və ya qərardadlarının sayı 2015-ci ildə **506** olduğu halda, 2014-cü ilin müvafiq dövründə bu rəqəm **584 iş olmuşdur ki**, bu da **78 işin (13,4%) azalmasını göstərir.**

2015-ci ildə kasasiya şikayəti ilə müraciət edənlər tərəfindən **6.159 manat** dövlət rüsumu ödənilmişdir**.**

Hesabat dövründə IIK-da baxılan işlər üzrə **xüsusi qərardad** qəbul edilməmişdir.

**<u>İqtisadi işlər üzrə</u>**

2015-ci ildə İİK-nın icraatına 423 iqtisadi iş daxil olmuşdur ki, bu da 2014-cü ildə icraatda olmuş 445 işdən 22 iş (4,9%) **azdır.**

İİK-nın icraatında olan **423 işdən 345 (81,6%) işə** yekun məhkəmə qərarı çıxarılmaqla baxılmış, **16 (3,8%) iş** baxılmadan geri qaytarılmış, **62 (14,6%) iş** isə 2016-cı ilin yanvar ayına qalıq keçirilmişdir.

İİK-da 2015-ci ildə yekun məhkəmə qərarı çıxarılmaqla **345** işə baxılmışdırsa, 2014-cü ildə isə **396** işə baxılmışdır ki, bu da **51 (12,9%) işin** azalmasını göstərir.

**İİK-da** 2015-ci ildə yekun hesabat dövründə yekun məhkəmə qərarı çıxarılmaqla **baxılan 345 işdən:**

**- 22 (6,4%) iş vergi ödəmələri;**
**- 19 (5,5%) iş torpaq mübahisələrərinə dair;**
**- 65 (18,8%) iş borc mübahisələri;**
**- 51 (14,8%) iş kredit müqaviləsi və bank əmanəti, bank hesabatı müqaviləsi üzrə;**
**- 15 (4,3%) iş sığorta müqaviləsi üzrə;**
**- 22 (6,4%) iş müvafiq icra hakimiyyəti və yerli özünüidarə orqanlarının, sair orqan və təşkilatların, onların vəzifəli şəxslərinin qərarlarından və hərəkətlərindən (hərəkətsizliklərindən) olan ərizələr üzrə;**
**- qalan 151(43,8/%) iş isə digər məsələlərlə əlaqədar olmuşdur.**

İİK-da kassasiya qaydasında baxılmış 345 iş üzrə çıxarılmış yekun məhkəmə qərarlarının təhlili göstərir ki:

- 228 (66,1%) iş üzrə qətnamə və ya qərardad dəyişdirilmədən saxlanılmış;
- 110 (31,9%) iş üzrə qətnamə və ya qərardad ləğv edilmişdir, onlardan:
-89 (25,8%) iş **üzrə qətnamə və ya qərardad ləğv edilərək iş yenidən apellyasiya instansiyası məhkəməsinə qaytarılmış;**
**-** 7 (2%) iş **üzrə qətnamə və ya qərardad ləğv edilərək iş üzrə yeni qərar qəbul edilmiş;**
**-** 4 (1,2%) iş **üzrə qətnamə və ya qərardad ləğv edilərək iş üzrə iddia (ərizə) baxılmamış saxlanılmış;**
**-** 10 (2,9%) iş **üzrə qətnamə və ya qərardad ləğv edilərək iş üzrə icraata xitam verilmişdir;**
- 4 (1,1%) iş üzrə qətnamə **və ya qərardad** dəyişdirilmiş;
- 3 (0,9%) iş üzrə isə kassasiya icraatına xitam verilmişdir.

2014-cü ildə kasasiya şikayəti ilə müraciət edənlər tərəfindən **3.009 manat** dövlət rüsumu ödənilmişdir.

**Bu məlumatlar apellyasiya instansiyası məhkəmələri üzrə aşağıdakı cədvəldə əks olunmuşdur.**

***Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati-iqtisadi kollegiyasında 2015-ci ildə apellyasiya instansiyası məhkəmələrinin iqtisadi mübahisələrə dair işlər üzrə qətnamə və qərardadlarına kassasiya qaydasında baxılma nəticələri haqqında***

**M Ə L U M A T**

| Apellyasiya instansiyası məhkəməsinin adı | Cəmi baxılıb | Qüvvədə saxlanılıb | Cəmi ləğv olunub | ondan | | | | Kasasiya icraatına xitam verilib | Dəyişdirilib | Xüsusi qərar |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | Yeni apelyasiya baxışı | Yeni qərar | Baxılmamış saxlanılıb | İş üzrə icraata xitam verilib | | | |
| **Bakı** Apellyasiya Məhkəməsi | 260 | *167* | *88*<br>*33,8%* | *70*<br>*26,9%* | *7*<br>*2,7%* | *3*<br>*1,2%* | *8*<br>*3,1%* | *3* | *2* | |
| **Gəncə** Apellyasiya Məhkəməsi | 25 | *15* | *10*<br>*40%* | *9*<br>*36%* | - | - | *1*<br>*4%* | - | - | |
| **Şırvan** Apellyasiya Məhkəməsi | 20 | *18* | *2*<br>*10%* | *2*<br>*10%* | - | - | - | - | - | |
| **Sumqayıt** Apellyasiya Məhkəməsi | 19 | *15* | *3*<br>*15,8%* | *3*<br>*15,8%* | - | - | - | - | *1* | |
| **Şəki** Apellyasiya Məhkəməsi | 19 | *12* | *6*<br>*31,6%* | *4*<br>*21,1%* | - | *1*<br>*5,2%* | *1*<br>*5,2%* | - | *1* | |
| **Naxçıvan MR** Ali Məhkəməsi | 2 | *1* | *1*<br>*50%* | *1*<br>*50%* | - | - | - | - | - | |
| **Cəmi** | 345 | *228*<br>*66,1%* | *110*<br>*31,9%* | *89*<br>*25,8%* | *7*<br>*2%* | *4*<br>*1,2%* | *10*<br>*2,9%* | *3*<br>*1%* | *4*<br>*1,2%* | - |

**Qeyd:** Statistik məlumatların təhlili göstərir ki, apelyasiya instansiyası məhkəmələrinin ləğv edilmiş qətnamə və ya qərardadlarının sayı 2015-ci ildə 110 olduğu halda, bu rəqəm 2014-cü ildə **138 iş** olmuş,beləliklə də 2015-ci ildə **28 (20,3%) iş azalmışdır**.

Hesabat dövründə IIK-da baxılan işlər üzrə **xüsusi qərardad** qəbul edilməmişdir.

**<u>İnzibati işlər üzrə</u>**

2015-ci ildə İİK-nın icraatına 1.885 inzibati iş daxil olmuşdur ki, bu da 2014-cü ildə icraatda olmuş 1 693 işdən 192 iş, yani 11,3% artmasını **göstərir.**

İİK-nın icraatında olan **1.885 inzibati işdən 1 399 (74,2%)** işə yekun məhkəmə qərarı çıxarılmaqla baxılmış, **124 (6,6%) iş** üzrə kassasiya şikayəti mümkün sayılmamış, **362 (19,2%)** iş 2016-cı ilin yanvar ayına qalıq keçmişdir.

İİK-da 2015-ci ildə yekun məhkəmə qərarı çıxarılmaqla baxılan **1 399 inzibati işdən:**

- **144 (10,3%)** iş **əmək münasibətləri üzrə mübahisələrə dair**;
- **57 (4,1%)** iş **mənzil mübahisələri üzrə**;
- **99 (7%)** iş **mülkiyyət hüququ ilə əlaqadar mübahisələr üzrə** ;
- **121 (8,6%)** iş **torpaq mübahisələri üzrə**;
- **229 (16,4%) iş vergi ödəmələri;**
- **92 (6,6%) iş seçkihüquqlarının müdafiəsi barədə ərzələr üzrə**;
- **236 (16,9%) iş müvafiq icra hakimiyyəti və yerli özünüidarə orqanlarının, sair orqan və təşkilatların, onların vəzifəli şəxslərinin qərarlarından və hərəkətlərindən (hərəkətsizliklərindən) olan ərizələr üzrə;**
- **qalan 421 (30%) iş isə digər məsələlərlə əlaqədar olmuşdur.**

İİK-da kassasiya qaydasında baxılmış 1 399 inzibati iş üzrə çıxarılmış yekun məhkəmə qərarlarının təhlili göstərir ki:

- 970 (69,3%) iş üzrə qətnamə və ya qərardad dəyişdirilmədən saxlanılmış;
- 396 (28,3%) iş üzrə qətnamə və ya qərardad ləğv edilmişdir, onlardan:
- **253 (18,1%) iş üzrə qətnamə və ya qərardad ləğv edilərək iş yenidən apellyasiya instansiyası məhkəməsinə qaytarılmış;**
- 49 (3,5%) iş **üzrə qətnamə və ya qərardad ləğv edilərək iş üzrə yeni qərar qəbul edilmiş;**
- 85 (6,1%) iş **üzrə qətnamə və ya qərardad ləğv edilərək iş üzrə iddia (ərizə) baxılmamış saxlanılmış;**
- 9 (0,6%) iş **üzrə qətnamə və ya qərardad ləğv edilərək iş üzrə icraata xitam verilmişdir;**
- 16 (1,1%) iş üzrə qətnamə **və ya qərardad** dəyişdirilmiş;
- 17 (1,2%) iş üzrə isə kassasiya icraatına xitam verilmişdir.

2015-ci ildə kasasiya şikayəti ilə müraciət edənlər tərəfindən **3.150 manat** dövlət rüsumu ödənilmişdir.

Bu məlumatlar apellyasiya instansiyası məhkəmələri üzrə aşağıdakı cədvəldə əks olunmuşdur.

***Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati-iqtisadi kollegiyasında 2015-ci ildə apellyasiya instansiyası məhkəmələrinin inzibati işlər üzrə qərar və qərardadlarına kassasiya qaydasında baxılma nəticələri haqqında***

**M Ə L U M A T**

| Apellyasiya instansiyası məhkəməsinin adı | Cəmi baxılıb | Qüvvədə saxlanılıb | Cəmi ləğv olunub | Ondan | | | | Kasasiya icraatına xitam verilib | Dəyişdirilib | Xüsusi qərar |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | Yeni apelyasiya Baxışına göndərildi | Yeni qərar | İddia mümkün sayılmamışdır | İş üzrə icraata xitam verilib | | | |
| **Bakı** Apellyasiya Məhkəməsi | 926 | *645* | *260* *28,1%* | *163* *17,6%* | *36* *3,9%* | *54* *5,8%* | *7* *0,8%* | *9* | *12* | - |
| **Gəncə** Apellyasiya Məhkəməsi | 128 | *79* | *45* *35,2%* | *31* *24,2%* | *5* *3,9%* | *9* *7%* | - | *2* | *2* | - |
| **Şırvan** Apellyasiya Məhkəməsi | 112 | *78* | *32* *28,6%* | *17* *15,2%* | *3* *2,7%* | *11* *9,8%* | *1* *0,9%* | *1* | *1* | - |
| **Sumqayıt** Apellyasiya Məhkəməsi | 127 | *89* | *33* *26%* | *23* *18,1%* | *3* *2,4%* | *7* *5,5%* | - | *3* | *2* | - |
| **Şəki** Apellyasiya Məhkəməsi | 102 | *76* | *25* *24,5%* | *18* *17,6%* | *2* *2%* | *4* *3,9%* | *1* *1%* | *1* | - | - |
| **Naxçıvan MR** Ali Məhkəməsi | 4 | *3* | *1* *25%* | *1* *25%* | - | - | - | - | - | - |
| **Cəmi** | 1.399 | *970* | *396* *28,3%* | *253* *18,1%* | *49* *3,5%* | *85* *6,1%* | *9* *0,6%* | *16* | *17* | - |

**Qeyd:** Statistik məlumatları müqayisə etdikdə görünür ki, apellyasiya instansiyası məhkəmələrinin ləğv edilmiş qətnamə və ya qərardadlarının sayı 2015-ci ildə 2014-cü ilə nisbətən **50(11,2% iş) azalmışdır.**

Hesabat dövründə IIK-da baxılan işlər üzrə **xüsusi qərardad** qəbul edilməmişdir.

Məlumatın əhatə etdiyi dövrdə Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati-İqtisadi Kollegiyasının sədri H. Mirzəyev 29 nəfər şikayətçini qəbul etmiş, şikayətlərlə əlaqədar müvafiq işlər tələb edilərək öyrənilmişdir.

2015-ci il ərzində kollegiyanın hakimləri müxtəlif konfrans və seminarlarda iştirak etmişlər. O cümlədən:

Hakimlər Sevda Hüseynova, Zakir Quliyev və Xəqani Məmmədov Almaniya Beynəlxaiq Əməkdaşlıq Cəmiyyətinin "Cənubi Qafqazda Avropa standartlarına hüquqi yaxınlaşmanın dəstəklənməsi" proqramı çərçivəsində Qəbələ rayonunda və Almaniyanın Berlin şəhərində keçirilən təlimlərdə iştirak etmişlər.

Avropa Şurası, Məhkəmə-Hüquq Şurası və Ədliyyə Akademiyasının birgə təşkilatçılığı ilə "Avropa İnsan Hüquqları Konvensiyası və Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnun tətbiqi"nə dair Bakı şəhərində və Strasburq şəhərində keçirilən təlimlərdə iştirak etmişlər.

Hakim Xəqani Məmmədov Avropa Hakimlərinin Məşvərət Şurasının növbəti Plenar iclasında iştirak etmək üçün Londona, 2015-ci ilin dekabr ayında isə Türkiyə Respublikasının Yüksək İnzibati Məhkəməsinin dəvəti ilə Ankaraya və Türkiyə Respublikasının Hakimlər və Prokurorlar Yüksək Kurulunun dəvəti ilə Türkdilli Ölkələrin Məhkəmə Hüquq Şuralarının iclasına qatılmaq üçün İstanbula səfərdə olmuşdur.

Hakim İlqar Hüseynov Ədliyyə Nazirliyinin, Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının birgə təşkilatçılığı ilə 28.11.2015-ci il tarixdə Şəki Məhkəmə Kompleksində keçirilən tədbirdə Məhkəmə-Hüquq Şurasının üzvləri, Ali Məhkəmənin, Şəki, Şirvan və Gəncə apellyasiya və onların yurisdiksiyasına daxil olan birinci instansiya məhkəmələrinin sədrləri və hakimləri, hakim assosiasiyalarının rəhbərləri, ədliyyə işçiləri, vəkillər, vətəndaş cəmiyyəti və media nümayəndələrinin iştirakı ilə "Məhkəmə təcrübəsi və elektron məhkəmənin tətbiqi məsələləri" mövzusunda keçirilən regional müşavirədə çıxış etmişdir.

Hakim İlqar Dadaşov Almaniya Beynəlxaiq Əməkdaşlıq Cəmiyyətinin "Cənubi Qafqazda Avropa standartlarına hüquqi yaxınlaşmanın dəstəklənməsi" proqramı çərçivəsində Azərbaycan Respublikası Ali Məhkəməsi və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin təşkilatçılığı ilə "Naxçıvan Muxtar Respublikasında hüquq tətbiqetmə təcrübəsi nəzərə alınmaqla Azərbaycan inzibati prosesinin aktual problemləri" mövzusunda keçirilən seminarda "Azərbaycanda İnzibati Prosessual Məcəllənin tətbiqi ilə bağlı aşağı məhkəmənin praktikasında problemlər" mövzusunda çıxış etmişdir.

## 3. Ali Məhkəmənin Cinayət kollegiyası




Ali Məhkəmənin Cinayət kollegiyasında (bundan sonra **«CK»**) apellyasiya instansiyası məhkəmələrinin cinayət kollegiyalarının çıxardıqları hökm və qərarlardan verilən kassasiya şikayətinə və ya kassasiya protestinə, həmçinin işdə iştirak etməyə cəlb olunmayan, lakin apellyasiya instansiyası məhkəməsinin cinayət işləri və inzibati xətalara dair işlər üzrə məhkəmə kollegiyasının hökm və ya digər yekun aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən Ali Məhkəmənin sədrinin verdiyi təqdimata baxılır.

CK-da müharibə və hərbi xidmət əleyhinə olan, habelə hərbi qulluqçular tərəfindən törədilmiş cinayət işləri, məhkəməyədək sadələşdirilmiş və ya xüsusi ittiham qaydasında şikayət üzrə materiallar istisna olmaqla, qalan işlərə (materiallara) kassasiya qaydasında baxılır.

2015-ci il ərzində CK-da cəmi **2 609** nəfər haqqında **2 307** iş icraatda olmuşdur. Bunlardan **2 (0,1%)** nəfər haqqında **2 (0,1%)** iş təqdimatla, **1 915 (73,4%)** nəfər haqqında **1 731 (75%)** iş kassasiya şikayətinə, **692 (26,6%)** nəfər haqqında **574 (25%)** iş kassasiya protestinə əsasən daxil olmuşdur.

2015-ci ildə CK-na daxil olmuş **2 609 nəfər haqqında 2 307 işdən 2 110 (80,9%)nəfər haqqında 1 856 (80,5%) cinayət işi üzrə kassasiya şikayəti və protestinə baxılmaqla yekun məhkəmə qərarı çıxarılmış, 76 (2,9%) nəfər** haqqında **76 (3,3%) iş** qanunvericilikdə nəzərdə tutulan tələblərə uyğun olmadığından baxılmamış saxlanılmış, **423 (16,2%) nəfər haqqında 375 (16,3%) iş** isə baxılması üçün 2016-ci ilə keçirilmişdir.

2015-ci ildə CK-da ümumilikdə kassasiya qaydasında mahiyyəti üzrə **2 110 nəfər** haqqında olan **1 856 işə baxılaraq**, çıxarılmış yekun məhkəmə qərarları ilə apellyasiya instansiyası məhkəmələrinin:




**Cəmi 329 (15,6% ) nəfər haqqında 254 (13,7%) iş üzrə qərarı ləğv olunmuşdur. Onlardan:**

**- 326 (15,5%) nəfər haqqında 251 (13,5%) iş üzrə qərarları ləğv olunmuş və yeni apellyasiya baxışına qaytarılmış;**

**- 3 (0,1%) nəfər haqqında 3 (0,2%) iş üzrə qərarları ləğv olunaraq kassasiya icraatına xitam verilmiş;**

**- 76 (3,6%) nəfər haqqında 72 (3,9%) iş üzrə qərarlar dəyişdirilmiş;**

**- 86 (4,1%) nəfər haqqında olan 84 (4,5%) iş üzrə kassasiya şikayəti verilmə müddəti bərpa olunmamış;**

**- 321 (15,2%) nəfər haqqında 277 (14,9%) iş üzrə olan kassasiya şikayəti məhkumların və onların müdafiəçilərinin ərizələrinə əsasən geri qaytarılmışdır;**

**- 1 298 (61,5%) nəfər haqqında 1 169 (63%) iş üzrə qərarlar isə dəyişdirilmədən saxlanılmışdır.**

**Cəmi 3 iş üzrə xüsusi qərar qəbul edilmişdir.**

*Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət kollegiyasında 2015-ci ildə apelyasiya instansiyası məhkəmələrinin hökm və qərarlarına kassasiya qaydasında baxılması nəticələrinə dair*

**M Ə L U M A T**

| Apellyasiya instansiyası məhkəməsinin adı | Cəmi baxılıb | Qüvvədə saxlanılıb | Cəmi ləğv olunub, onlardan | ondan: Yeni apelyasiya | ondan: İş üzrə icraata xitam verilib | Dəyişdirilib | Kassasiya şikayəti qeri qaytarılıb | Müddət bərpa edilməyib | Xüsusi qərar |
|---|---|---|---|---|---|---|---|---|---|
| Bakı Apellyasiya Məhkəməsi | 1214 | *778* | *134 11%* | *133 10,9%* | *1 0,1%* | *41* | *203* | *58* | 3 |
| Gəncə Apellyasiya Məhkəməsi | 167 | *111* | *26 15,6%* | *25 15%* | 1 0,6% | *6* | *22* | *2* | |
| Şırvan Apellyasiya Məhkəməsi | *343* | *200* | *69 20,1%* | *68 19,8%* | *1 0,3%* | *14* | *49* | *11* | |
| Sumqayıt Apellyasiya Məhkəməsi | 246 | *124* | *77 31,3%* | *77 31,3%* | - | *8* | *24* | *13* | |
| Şəki Apellyasiya Məhkəməsi | 136 | *83* | *23 16,9%* | 23 16,9% | - | 7 | 22 | 1 | |
| Naxçıvan MR Ali Məhkəməsi | 2 | *2* | - | - | - | - | - | - | |
| AR Apellyasiya Məhkəməsi | 2 | - | - | - | - | - | *1* | 1 | |
| Cəmi | 2 110 | *1 298 61,5%* | *329 15,6%* | *326 15,5%* | *3 0,1%* | *76 3,6%* | *321 15,2%* | *86 4,1%* | 3 |

**QEYD: Aparılmış təhlil nəticəsində müəyyən edilmişdir ki, Ali Məhkəmənin CK-da** 2015-ci ildə **2 110 nəfər haqqında 1 856 işə baxıldığı halda**, 2014-cü ilin müvafiq dövründə isə **2 045 nəfər haqqında 1 827 işə baxılmışdır ki,** bu da 2015-ci ildə baxılmış işlərin sayına görə **29 (1,6%) iş**, şəxslərin sayına görə isə **65 (3,2%) nəfərin artmasını göstərir.**

2015-ci ildə **329 nəfər** haqqında **254 iş** ləğv olunduğu halda , 2014-cü ilin müvafiq dövründə isə **311** nəfər haqqında **256** iş ləğv olunmuşdur ki, bu da 2015-ci ildə ləğv olunmuş **2 işin (0,8%) azalmasını, 18 (5,8%) nəfər barəsində ləğvin artmasını göstərir.**

Məlumatın əhatə etdiyi dövrdə Cinayət kollegiyasının hakimləri konkret işlərə baxmaqla yanaşı Ali Məhkəmə tərəfindən müəyyən işlərin görülməsində, müzakirəyə göndərilmiş qanun layihələrinə dair rəy və təkliflərin verilməsində, Plenum qərarlarının və digər sənədlərin hazırlanmasında, bir sıra tədbirlərin keçirilməsində yaxından iştirak etmişlər.

Belə ki, 2015-ci ildə Cinayət kollegiyasının hakimləri tərəfindən ümimilikdə **99** əlavə kassasiya şikayəti və yeni açılmış hallar üzrə ərizələrlə bağlı qərar layihələri hazırlanaraq Ali Məhkəmənin sədrinə təqdim olunmuş, Əfv komissiyasından daxil olmuş materiallar əsasında **354** rəy hazırlanaraq Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq Mühafizə Orqanları ilə İş Şöbəsinin əfv məsələləri üzrə sektoruna göndərilmişdir.

10 aprel 2015-ci il tarixdə keçirilmiş Ali Məhkəmənin Plenumunda Cinayət kollegiyasının təkliflərinə əsasən "Azərbaycan Respublikasının Cinayət və Cinayət-Prosessual Məcəllələrində dəyişikliklər edilməsi barədə qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Respublikasının Milli Məclisinə təkliflər verilməsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenum qərarı qəbul edilmiş və Milli Məclisə təqdim olunmuşdur.

Cinayət kollegiyasının hakimləri tərəfindən məhkəmə təcrübəsinin ümumiləşdirilməsi və məhkəmə statistikasının təhlili şöbəsi ilə birgə 2013-cü ildə respublika məhkəmələrinin baxdıqları dələduzluq cinayətlərinə dair işlər tələb edilib öyrənilərək məhkəmə təcrübəsi ümumiləşdirilmiş, ümumiləşdirmənin nəticələri 11 iyun 2015-cü il tarixdə Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunda apellyasiya və birinci instansiya məhkəmə sədrlərinin iştirakı ilə geniş müzakirə edilmişdir. Təhlil edilmiş işlərə baxılarkən məhkəmələrin fəaliyyətində nöqsan və çatışmazlıqların aradan qaldırılması və bu işlər üzrə vahid məhkəmə təcrübəsinin formalaşdırılması məqsədilə Plenum tərəfindən "Dələduzluq cinayətlərinə dair işlər üzrə məhkəmə təcrübəsi haqqında" Qərar qəbul edilmiş, bu məsələlərlə bağlı birinci və apellyasiya instansiya məhkəmələrinə icmal məktub göndərilmişdir.

Bundan başqa, cinayət kollegiyasının hakimləri və məhkəmə təcrübəsinin ümumiləşdirilməsi və məhkəmə statistikasının təhlili şöbəsi tərəfindən Ali Məhkəmənin 2015-ci ilin birinci yarısına dair iş planına əsasən respublikanın birinci instansiya məhkəmələrinin 2013-cü ildə baxılmış "qəsdən sağlamlığa ağır zərər vurma" və "oğurluq" cinayətlərinə dair işlər üzrə cəza təyini təcrübəsi ümumiləşdirilmiş, ümumiləşdirmənin nəticələri Ali Məhkəmənin Plenumunda 30 oktyabr 2015-ci il tarixdə birinci və apellyasiya instansiya məhkəmə sədrlərinin və hakimlərinin iştirakı ilə müzakirə olunaraq təhlillər aparılmış və aşkar edilmiş nöqsanların aradan qaldırılması məqsədilə məhkəmələrə icmal məktubu göndərilmişdir.

Hakim G.Rzayeva 17 aprel 2015-ci il tarixdə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində keçirilmiş iclasda iştirak etmişdir.

Hakim H.Nəsibov 30 iyun-02 iyul 2015-ci il tarixlərdə Azərbaycan Respublikası Mərkəzi Bankı yanında Maliyyə Monitorinq Xidmətində "Terrorçuluğu maliyyələşdirmə və cinayət yolu ilə əldə edilmiş çirkli pulların leqallaşdırılması" mövzusunda təşkil edilmiş iclasda iştirak etmişdir.

2015-ci ildə Cinayət Kollegiyasının sədri Ş.Yusifov kollegiyanın icraatında olan işlər üzrə ərizə və şikayətlərlə bağlı **24** nəfəri qəbul etmiş, İnsan Hüquqları üzrə Avropa Məhkəməsi tərəfindən kommunikasiya edilən **8** nəfər Azərbaycan Respublikasının və digər respublikaların vətəndaşlarının şikayətləri üzrə Ali Məhkəməyə göndərilmiş sorğu məktubları əsasında cinayət işləri və materialları tələb edib öyrənmiş və cavab məktubları hazırlayaraq Avropa Məhkəməsinin yanında Azərbaycan Respublikasının səlahiyyətli nümayəndəsinə göndərmişdir.
Həmçinin 2015-ci il ərzində Ali Məhkəməyə daxil olmuş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin və qanunvericiliyə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrin İntizam Nizamnaməsi"nin və "Kobud intizam xətalarına dair işlər üzrə icraat haqqında" Azərbaycan Respublikası Qanununun layihələrinə təkliflər verilmiş, Azərbaycan Respublikası Nazirlər Kabinetindən daxil olmuş ATƏT-in İnsan alverinə ilə mübarizə üzrə xüsusi nümayəndəsi və əlaqələndiricisi xanım Mədinə Yarbuzinova 2015-ci ilin 9-13 mart tarixlərində ölkəmizə olan səfəri zamanı qəbul edilmiş, onun bu səfərin nəticəsi olaraq təqdim etdiyi tövsiyələrinə dair təkliflər hazırlanaraq Daxili İşlər Nazirliyinə göndərilmiş, Azərbaycan Respublikası Nazirlər Kabinetindən daxil olmuş "Azərbaycan Respublikası Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında", "Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən prekursorların miqdarının, habelə onların külli miqdarının siyahısının təsdiq edilməsi haqqında" və "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikası Qanununda dəyişkliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanun layihələrinə, Azərbaycan Respublikası Baş Prokurorluğundan daxil olmuş ibtidai istintaqın prosessual aktlarının nümunəvi formaları toplusuna dair rəy və təkliflər hazırlanaraq Baş Prokurorluğa göndərilmiş, Azərbaycan Respublikası CM-nin 177.2, 178.2 və 179.2-ci maddələrdə dəyişiklik edilməsi haqqında Qanun layihəsi hazırlanaraq Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq Mühafizə Orqanları ilə İş Şöbəsinə göndərilmiş, İrqçilik və irqi ayrı-seçkiliklə bağlı ölkəmizdə olan vəziyyət haqqında Azərbaycan Respublikasının Millətlərarası, Multikulturalizm və Dini Məsələlər üzrə Dövlət müşavirinə və Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə təqdim edilmiş, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsindən daxil olmuş məktuba əsasən Respublikanın apellyasiya və birinci instansiya məhkəmələrinə icmal məktub göndərilərək qaçaqmalçılıq işlərinə baxılarkən Gömrük Məcəlləsinin və digər normativ aktların tələblərinə əməl edilməsi tövsiyə olunmuş, Azərbaycan

Respublikasının Cinayət- Prosessual və Cinayət Məcəllələrinə əlavə və dəyişikliklər hazırlanaraq Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq Mühafizə Orqanları ilə İş Şöbəsinə göndərilmiş, Nazirlər Kabinetindən daxil olmuş Azərbaycan Respublikası Cinayət-Prosessual, Cinayət, İnzibati Xətalar Məcəllələrinə, "Cinayət törətmiş şəxslərin verilməsi haqqında" Azərbaycan Respublikası Qanununda, "İnformasiya əldə etmək haqqında" və "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanunlarında dəyişikliklərin edilməsi haqqında Qanun layihələrinə rəy və təkliflər hazırlanaraq göndərilmiş, "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikası Qanun layihəsinə dair rəy hazırlanaraq Nazirlər Kabinetinə təqdim edilmiş, Prezident Administrasiyasından və  Nazirlər kabinetindən daxil olmuş "Sanitariya-epidemioloji salamatlıq haqqında", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Ədliyyə orqanlarında qulluq keçmə haqqında",  "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında", "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanunlarında, Azərbaycan Respublikasının Cəzaların İcrası və Miqrasiya Məcəllələrində və Nazirlər Kabinetinin bir çox qərarlarında dəyişikliklərin edilməsi haqqında rəy hazırlanaraq Ədliyyə Nazirliyinə göndərilmiş, "Güclü təsir edən və zəhərli maddələrin siyahılarının təsdiq edilməsi" haqqında Qanun layihəsi ilə bağlı Cinayət Məcəlləsinə dəyişiklik barədə qanun layihəsi hazırlanaraq Baş Nazirin müavininə , Azərbaycan Respublikası CM-nin 233-cü maddəsinə təklif edilən dəyişikliklə bağlı, habelə İnzibati Xətalar Məcəlləsinin 180-cı maddəsinə təklif edilən dəyişikliklərlə  bağlı rəy hazırlanaraq Nazirlər Kabinetinə , "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2014-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın Tədbirlər Planının icrası ilə bağlı hazırlanmış Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsində dəyişikliklərin edilməsi haqqında Qanun layihəsinə dair rəy hazırlanaraq Baş Nazirin müavininə, "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2014-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın Tədbirlər Planının icrası ilə bağlı Respublikanın məhkəmələri tərəfindən 2014-cü ildə və 2015-ci ilin 1-ci yarımilliyində baxılmış işlərə dair məlumat Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizə üzrə Milli Koordinatora göndərilmiş, Nazirlər Kabinetindən daxil olmuş "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununa dəyişikliklər edilməsi barədə" qanun layihəsinə dair rəy hazırlanaraq Nazirlər Kabinetinə təqdim edilmişdir.

## 4. Ali Məhkəmənin Hərbi kollegiyası

Ali Məhkəmənin Hərbi kollegiyasında (bundan sonra «**HK**») apellyasiya instansiyası məhkəmələrinin hərbi kollegiyalarının çıxardıqları hökm və qərarlardan verilən kassasiya şikayətinə və kassasiya protestinə, həmçinin işdə iştirak etməyə cəlb olunmayan, lakin apellyasiya instansiyası məhkəmələrinin hərbi məhkəmələrin işləri üzrə məhkəmə kollegiyalarının çıxardıqları hökm və ya digər yekun aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən Ali Məhkəmənin sədrinin verdiyi təqdimata baxılır.

HK-da müharibə və hərbi xidmət əleyhinə olan, habelə hərbi qulluqçular tərəfindən törədilmiş cinayət işlərinə kassasiya qaydasında baxılır.

2015-ci ildə HK-ya **cəmi 175 nəfər haqqında olan 154 cinayət işi icraatda olmuşdur.**

HK-nın icraatında olan **175 nəfər haqqında 154 cinayət işindən 142 (81,1%) nəfər haqqında 126 (81,8%) iş kassasiya şikayəti, 33 (18,9%) nəfər haqqında 28 (18,2%) iş isə kassasiya protesti ilə əlaqədar olmuşdur.**

Həmin dövrdə HK-ya **daxil olmuş 175 nəfər haqqında olan 154 cinayət işindən: 151 (86,3%) nəfər haqqında 135 (87,7%)** cinayət işinə yekun məhkəmə qərarı çıxarılmaqla baxılmış, kassasiya şikayəti üzrə **24 (13,7%) nəfər haqqında 19 (12,3%)cinayət işi** isə 2015-ci ilə qalıq keçmişdir.

2015-ci ildə HK-da ümumilikdə kassasiya qaydasında mahiyyəti üzrə **151 nəfər haqqında olan 135 işə baxılaraq**, çıxarılmış yekun məhkəmə qərarları ilə apellyasiya instansiyası məhkəmələrinin:

**Cəmi 21 (13,9%) nəfər haqqında 20 (14,8%) iş üzrə qərarı ləğv olunmuş və yeni apellyasiya baxışına qaytarılmış;**

**- 26 (17,2%) nəfər haqqında 24 (17,8%) iş üzrə qərarlar isə məhkumlara təyin edilmiş cəzalarla əlaqədar dəyişdirilmiş;**

**- 4 (2,6%) nəfər haqqında olan 4 (3%) iş üzrə kassasiya şikayəti verilmə müddəti bərpa olunmamış;**

**- 30 (19,9%) nəfər haqqında 25 (18,5%) iş üzrə olan kassasiya şikayəti məhkumların və onların müdafiəçilərinin ərizələrinə əsasən geri qaytarılmışdır;**

**- 70 (46,4%) nəfər haqqında 62 (45,9%) iş üzrə apellyasiya instansiyası məhkəmələrinin qərarları dəyişdirilmədən saxlanılmışdır.**

Hesabat dövründə HK-da baxılan işlər üzrə **xüsusi qərar** qəbul edilməmişdir.

Qeyd olunan məlumatlar apellyasiya instansiyası məhkəmələri üzrə ayrı-ayrılıqda aşağıdakı cədvəldə əks olunmuşdur.

*Azərbaycan Respublikası Ali Məhkəməsinin Hərbi kollegiyasında 2015-ci ildə apellyasiya instansiyası məhkəmələrinin hökm və qərarlarına kassasiya qaydasında baxılması nəticələrinə dair*

**M Ə L U M A T**

| Apelyasiya instansiyası məhkəməsinin adı | Cəmi baxılıb (nəf.) | Qüvvədə saxlanılıb | Cəmi ləğv olunub, onlardan | ondan: Yeni apelyasiya | ondan: İş üzrə icraata xitam verilib | Dəyişdirilib | Kassasiya şikayəti qeri qaytarılıb | Müddət bərpa edilməyib | Xüsusi qərar |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Bakı** Apellyasiya Məhkəməsi | *29* | *20* | *4* *13,8%* | *4* *13,8%* | - | *2* | *3* | - | |
| **Gəncə** Apellyasiya Məhkəməsi | *68* | *26* | *8* *11,8%* | *8* *11,8%* | - | *15* | *17* | *2* | |
| **Şırvan** Apellyasiya Məhkəməsi | *33* | *13* | *6* *18,2%* | *6* *18,2%* | - | *6* | *7* | *1* | |
| **Sumqayıt** Apellyasiya Məhkəməsi | *10* | *4* | *2* *20%* | *2* *20%* | - | *2* | *2* | - | |
| **Şəki** Apellyasiya Məhkəməsi | *3* | *3* | - | - | - | - | - | - | |
| **Naxçıvan MR** Ali Məhkəməsi | *7* | *4* | *1* *14,3%* | *1* *14,3%* | - | *1* | *1* | - | |
| **AR** Apellyasiya Məhkəməsi | *1* | - | - | - | - | - | - | *1* | |
| **Cəmi** | *151* | *70* *46,4%* | *21* *13,9%* | *21* *13,9%* | - | *26* *17,2%* | *30* *19,9%* | *4* *2,6%* | |

**QEYD:** Aparılmış təhlil nəticəsində müəyyən edilmişdir ki, Ali Məhkəmənin HK-da 2015-ci ildə **151 nəfər** haqqında **135 işə** baxıldığı halda, 2014-cü ilin müvafiq dövründə isə **191**

nəfər haqqında **163** işə baxlımışdır ki, bu da 2015-cü ildə baxılmış **28 (17,2%) nəfər** haqqında **40 (20,9%)** işin **azalmasını** göstərir.

2015-ci **ildə 21 nəfər** haqqında **20 iş** ləğv olunduğu halda, 2014-cü ilin **müvafiq dövründə isə 15** nəfər haqqında **14** iş ləğv olunmuşdur ki, bu da 2015-ci ildə ləğv olunmuş **6 (42,8%) nəfər haqqında 6 (40%) işin artmasını** göstərir.

Hərbi kollegiyanın hakimləri hesabat dövründə konkret işlərə baxmaqla yanaşı Ali Məhkəmə tərəfindən müəyyən işlərin görülməsində, müzakirəyə göndərilmiş qanun layihələrinə rəy və təkliflərin verilməsində və Plenum qərarlarının və digər sənədlərin hazırlanmasında, bir sıra tədbirlərin həyata keçirilməsində yaxından iştirak etmişlər.

Belə ki, 2015-ci ildə Hərbi kollegiyanın hakimləri tərəfindən ümumilikdə 7 əlavə kassasiya şikayəti ilə bağlı qərar layihələri hazırlanaraq Ali Məhkəmənin sədrinə təqdim olunmuş, əfv komissiyasından daxil olmuş materiallar əsasında 171 rəy hazırlanaraq Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq Mühafizə Orqanları ilə İş Şöbəsinin əfv məsələləri üzrə sektoruna göndərilmişdir.






## *5. Ali Məhkəmənin Plenumu*

### Ali Məhkəmənin Plenumunun işi haqqında məlumat

**2015-ci ildə** Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun **beş** iclası keçirilmişdir.

**6 fevral 2015-ci il tarixli** Plenum iclasında Ali Məhkəmənin kollegiyalarının 2014-cü ildə ədalət mühakiməsinin həyata keçirilməsinə dair məlumatları nəzərə alınmış və Azərbaycan Respublikası Ali Məhkəməsinin 2015-ci ilin I yarısına dair iş planı təsdiq edilmişdir.

**18 mart 2015-ci il tarixli** Plenum iclasında Ali Məhkəmənin hakimləri Şəlalə Məmmədova və Şahin Yusifovun Məhkəmə-Hüquq Şurasına üzv təyin edilməsi barədə Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenum qərarı qəbul edilmişdir.

**10 aprel 2015-ci il tarixli** Plenum iclasında "Respublikanın ümumi və inzibati-iqtisadi məhkəmələri tərəfindən Azərbaycan Respublikası Mülki-Prosessual Məcəlləsinin 25-26-cı və İnzibati-Prosessual Məcəlləsinin 8-9-cu maddələrinin (məhkəmə aidiyyətinin müəyyənləşdirilməsi) məhkəmələr tərəfindən tətbiqi təcrübəsinin ümumiləşdirilməsinə", "İnzibati məhkəmə icraatında iddianın mümkünlüyünə dair" və "Azərbaycan Respublikasının Cinayət və Cinayət-Prosessual Məcəllələrində dəyişikliklər edilməsi barədə qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Respublikasının Milli Məclisinə təkliflər verilməsi haqqında**"** Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenum qərarları qəbul edilmişdir.

O cümlədən, Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Reqlamenti və Azərbaycan Respublikası Ali Məhkəməsi yanında Elmi-Məsləhət Şurasının Əsasnaməsi təsdiq edilmişdir.

**11 iyun 2015-ci il tarixli** Plenum iclasında "Dələduzluq cinayətlərinə dair işlər üzrə məhkəmə təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenum qərarı qəbul edilmişdir.

**30 oktyabr 2015-ci il tarixli** Plenum iclasında Respublikanın birinci instansiya məhkəmələri tərəfindən CM-nin 126 və 177-ci maddələri ilə 2013-cü ildə baxılmış cinayət işləri üzrə cəza təyini təcrübəsinin ümumiləşdirilməsinin nəticələri müzakirə edilmiş, bununla əlaqədar məhkəmələrə icmal məktub göndərilmişdir.

Plenum iclaslarında on mülki, bir iqtisadi mübahisəyə və bir cinayət işinə baxılıb müvafiq qərarlar çıxarılmışdır.

Baxılmış səkkiz mülki işə Konstitusiya Məhkəməsinin qərarlarına, bir mülki işə yeni açılmış hallara dair ərizəyə və bir mülki işə Sədrin təqdimatına əsasən baxılmışdır.

Konstitusiya Məhkəməsinin qərarına əsasən baxılmış yeddi və Sədrin təqdimatına əsasən baxılmış bir mülki iş üzrə kassasiya instansiyası məhkəməsinin və apellyasiya instansiyası məhkəməsinin qərarları ləğv edilərək, işlər yeni apellyasiya baxışına göndərilmişdir. Konstitusiya Məhkəməsinin qərarına əsasən baxılmış bir mülki iş üzrə isə Azərbaycan Respublikası Ali Məhkəməsi yeni açılmış hallar üzrə məhkəmə tərkibinin qərardadı ləğv edilərək, işə yeni açılmış hallar üzrə başqa məhkəmə tərkibində baxılması qərara alınmışdır. Bir mülki iş üzrə yeni açılmış hallara dair ərizə təmin edilməmiş, qərardad qüvvədə saxlanılmışdır.

Bir iqtisadi mübahisə üzrə Sədrin təqdimatı təmin edilmiş, kassasiya instansiyası məhkəməsinin və apellyasiya instansiyası məhkəməsinin qərarları ləğv edilərək, iş yeni apellyasiya baxışına göndərilmişdir.

Cinayət işinə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarına əsasən baxılmış, kassasiya instansiyası məhkəməsinin və apellyasiya instansiyası məhkəməsinin qərarları hissəvi ləğv edilərək, iş yeni apellyasiya baxışına göndərilmişdir.

***Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunda***
***2014 və 2015-ci illər ərzində baxılmış işlər barədə müqayisəli***

**M Ə L U M A T**

| İşlərin baxılma əsasları | 2014-cü il | 2015-ci il | Fərq | |
|---|---|---|---|---|
| | | | Artıb | Azalıb |
| *Əlavə kassasiya şikayətlərinə, təqdimata və yeni açılmış hallara əsasən baxılmış mülki işlər* | ***9*** | ***2*** | **-** | *7 77,8%* |
| *Əlavə kassasiya şikayətlərinə, təqdimata və yeni açılmış hallara əsasən baxılmış iqtisadi və inzibati işləri* | ***2*** | ***1*** | **-** | ***1 50%*** |
| *Əlavə kassasiya şikayəti və protestlərə, təqdimata və yeni açılmış hallara əsasən baxılmış cinayət işləri* | **-** | **-** | **-** | **-** |
| *Konstitusiya Məhkəməsi qərarlarına əsasən qərarları qüvvədən düşmüş hesab edilən mülki işlər* | ***9*** | ***8*** | **-** | ***1 11,1%*** |
| *Konstitusiya Məhkəməsi qərarlarına əsasən qərarları qüvvədən düşmüş hesab edilən iqtisadi və inzibati işlər* | ***1*** | **-** | **-** | ***1 100%*** |
| *Konstitusiya Məhkəməsi qərarlarına əsasən qərarları qüvvədən düşmüş hesab edilmiş cinayət işləri* | **-** | **-** | **-** | **-** |
| *İnsan Hüquqları Üzrə Avropa Məhkəməsinin qərarlarına əsasən mülki işlər* | **-** | **-** | **-** | **-** |
| *İnsan Hüquqları Üzrə Avropa Məhkəməsinin qərarlarına əsasən cinayət işləri* | ***1*** | ***1*** | **-** | **-** |
| **Cəmi** | ***22*** | ***12*** | **-** | ***10 45,5%*** |

## Ali Məhkəmənin Aparatı və İşlər İdarəsi

Ali Məhkəmənin fəaliyyətinin hüquqi, təşkilati, informasiya, maddi-texniki, maliyyə və təsərrüfat təminatını həyata keçirmək üçün məhkəmə Aparatı və İşlər İdarəsi fəaliyyət göstərir.

Ali Məhkəmənin Aparatı və İşlər İdarəsi öz səlahiyyətlərinə görə ali kateqoriya dövlət orqanının məhkəmə aparatıdır, inzibati və yardımçı vəzifə tutan dövlət qulluqçularından ibarətdir.

«Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və «Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 19 yanvar 2006-cı il tarixli Fərmanı ilə ölkəmizin məhkəmə sisteminin inkişafında keyfiyyətcə yeni mərhələ başlanmışdır.

Ali Məhkəmənin və bütövlükdə məhkəmə sisteminin informasiya sisteminin yaradılması və təkmilləşdirilməsi vahid razılaşdırılmış prinsiplər əsasında qurulmuş, Ali Məhkəmə rəhbərliyinin, aparatı və hakimlərin fəaliyyətində müasir informasiya texnologiyalarının tətbiqi keyfiyyətcə yeni mərhələyə keçidin əsasını qoymuşdur.

Ali Məhkəmədə İnformasiya texnologiyalarının tətbiqi sahəsində əsas məqsəd hakimlərin və məhkəmə aparatının fəaliyyətinin müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə müasirləşdirilməsi və prinsipcə yeni formaya keçməsi ilə məhkəmənin fəaliyyətinin səmərəliliyinin artırılması təşkil edir.

Bu isə «Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və «Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 19 yanvar 2006-cı il tarixli Fərmanı və Azərbaycan Respublikası Prezidentinin 11 avqust 2010-cu il tarixli 1056 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı"nın (Elektron Azərbaycan) yerinə yetirilməsi ilə birbaşa bağlıdır.

Azərbaycan Respublikası Prezidentinin 13 fevral 2014-cu il tarixli ""Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında" Sərəncamı Azərbaycan Respublikasının məhkəmə sisteminin inkişafında yeni mərhələnin başlanğıcını qoydu.

Bu sərəncamın 2-ci bəndində nəzərdə tutulan işlərin yerinə yetirilməsi məhkəmə sistemində müasir informasiya texnologiyalarının tətbiqində növbəti-elektron mərhələsinə keçidi təmin edəcəkdir.

Bu sərəncamın yerinə yetirilməsi nəticəsində Azərbaycanda

-"Elektron məhkəmə" portalının yaradılması;

-"Elektron məhkəmə" portalı ilə Ali Məhkəmənin, Apellyasiya və 1-ci instansiya məhkəmələrinin məhkəmə işlərinin işlənməsi sistemləri ilə qarşılıqlı mübadilənin təmin olunması;

-"Elektron məhkəmə" sistemi ilə "ASAN" xidmət və "Elektron hökumət" portalları arasında qarşılıqlı mübadilənin təmin olunması nəzərdə tutulur.

Bu da məhkəmə sistemində aşağıdakı işlərin yerinə yetirilməsini nəzərdə tutur:

- mühakimə üsulunun təkmilləşdirilməsi və ədalət mühakiməsinin daha da əlyetərli olmasının təmin olunması;

- hakimlərin və məhkəmə aparatının fəaliyyətinin effektivliyinin artırılması;

- məhkəmə sisteminin informasiya fəzasında eyniliyinin təmin olunması;

- əhali və təşkilatlar üçün məhkəmələrə müraciətin asanlaşdırılması, aşkarlığın təmin olunması, məhkəmələrə getmədən internet vasitəsi ilə şikayətlərin verilməsi və işlərin gedişi barədə məlumatların operativ alınması;

- məhkəmənin gedişinin internet vasitəsi ilə müşahidə etmənin təmin olunması.

Qeyd olunan vəzifələrin yerinə yetirilməsi məqsədi ilə Ali Məhkəmədə bir sıra işlər həyata keçirilir:

- məhkəmə işlərinin, vətəndaşların və təşkilatların ərizə və şikayətlərinin baxılma müddətinin müasir informasiya-kommunikasiya texnologiyalarının – internet, elektron sənəd dövriyyəsi, böyük həcmli məlumatların işlənməsi və saxlanması, video-konfrans əlaqə və s. texnologiyaların kompleks şəkildə tətbiqi vasitəsi ilə qısaldılması;

- məhkəmədə kargüzarlığın və məhkəmə statistikası məlumatlarının keyfiyyətinin artırılması;

- Ali Məhkəmənin digər instansiya məhkəmələri, Respublika Prokurorluğu, Ədliyyə Nazirliyi və digər dövlət idarəetmə orqanları ilə məlumat mübadiləsinin operativliyinin artırılması;

- Qərarların qəbul edilməsi  üçün müasir analitik metodların tətbiqi vasitəsi ilə Ali Məhkəmənin fəaliyyətinin bütün sahələrində administrativ-idarəetmə proseslərinin məlumat təminatının keyfiyyətinin yüksəldilməsi;

- Ali Məhkəmənin avtomatlaşdırılmış məlumat sisteminin təhlükəsizliyinin kompleks şəkildə təmin olunması;

- Avtomatlaşdırılmış idarəetmə sisteminin qarşısında qoyulmuş tələblərə uyğun olaraq informasiya vasitələrinin  etibarlılığının və səmərəliliyinin kompleks şəkildə artırılması, təkmilləşdirilməsi və informasiya-kommunikasiya vasitələrinin inkişaf etdirilməsi üçün maddi-texniki və maliyyə təminatının olması;

- müasir informasiya texnologiyalarının tətbiqi sahəsində effektivliyin artırılması məqsədi ilə hakimlərin və məhkəmə aparatı işçilərinin ixtisasının artırılması;

Azərbaycan Respublikası Prezidentinin 11 avqust 2010-cu il tarixli 1056 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı"nda (Elektron Azərbaycan) və Azərbaycan Respublikası Prezidentinin 13 fevral  2014-cu il tarixli "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında" Sərəncamının 2-ci bəndində nəzərdə tutulmuş işlərin yerinə yetirilməsi, "Elektron məhkəmə" sisteminin yaradılması, "Ali Məhkəmənin "Elektron kargüzarlıq və sənəd dövriyyəsi" sisteminin təkmilləşdirilməsi, daha müasir texnologiyaların tətbiqi ilə beynəlxalq standartlara uyğunlaşdırılması"  bəndinin yerinə yetirilməsi məqsədi ilə informasiya texnologiyalarının tətbiqi sahəsində müəyyən işlər yerinə yetirilmiş və 2014-2016-ci illərdə yerinə yetiriləcək işlərin planı hazırlanmışdır.

Azərbaycan Respublikası Prezidentinin 13 fevral  2014-cu il tarixli "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında" Sərəncamının yerinə yetirilməsi məqsədi ilə 14 fevral 2014-cü il tarixdə Ali Məhkəmədə 13 nəfərdən ibarət xüsusi işçi qrupu yaradılmışdır.

İşçi qrup "Elektron məhkəmə" sisteminin yaradılması məqsədi ilə tədbirlər planı, yerinə yetiriləcək işləri əhatə edən ilkin layihə hazırlamış və maliyyə üçün təkliflər vermişdir.

Layihə çərçivəsində  Ali Məhkəmənin mövcud texniki və proqram təminatının mövcud  "Elektron sənəd dövriyyəsi sistemdə istifadəçilərin işinin yüngülləşdirilməsi və sənədlərin işlənməsini sürətləndirmək məqsədi ilə müəyyən dəyişikliklər edilmiş, işlərin yerinə yetirilməsinə nəzarəti təmin etmək üçün xüsusi daxili axtarış-nəzarət sistemi təkmilləşdirilmiş, "İnternet portal  www.supremecourt.gov.az"-da "E-Xidmətlər" bölməsinə

dəyişikliklər və yeni bəndlər, "Təhlil və statistika sistemi"nə yeni alətlər və statistik formalar əlavə edilmiş, yeni nəzarət sistemi yaradılmış, işlərin avtomatik bölgüsünün aparılması üçün xüsusi proqram hazırlanmış, Ali Məhkəmənin kadrlar sektoru üçün xüsusi proqram kompleksində dəyişikliklər edilmiş, mühasibat uçotu proqram təminatında qanunvericiliyə uyğun dəyişikliklər edilmişdir.

"Elektron məhkəmə" sisteminin yaradılması və Ali Məhkəmənin informasiya sisteminin yenilənməsi, məhkəməyə daxil olan işlərin elektron formada işlənməsi üçün proqram-texniki kompleksin yaradılması, fiziki və hüquqi şəxslərin məhkəmələrə müraciətlərinin, iddia ərizələrinin, müxtəlif məhkəmə instansiyalarına şikayətlərin elektron formada təqdim edilməsi üçün xüsusi sistemin yaradılması ilə bağlı prosessual qanunvericiliyə dəyişikliklər edilməsi barədə təkliflər verilmişdir.

Ali Məhkəmə Aparatının strukturunda müvafiq dəyişikliklər edildikdən sonra Aparat və İşlər İdarəsi 2015-ci ildə aşağıdakı tərkibdə fəaliyyət göstərmişdir :

**Ali Məhkəmənin Aparatı**

1. Məhkəmə təcrübəsinin ümumiləşdirilməsi və məhkəmə statistikasının təhlili şöbəsi
2. Beynəlxalq əlaqələr şöbəsi
3. Analitik və qanunvericiliyin sistemləşdirilməsi şöbəsi
4. Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsi
5. İnsan hüquqları və ictimaiyyətlə əlaqələr şöbəsi
6. Dövlət qulluğu və kadr məsələləri sektoru
7. İcra şöbəsi
8. Ali Məhkəmə Plenumunun katibliyi
9. Mülki kollegiyanın katibliyi
10. Inzibati-İqtisadi kollegiyanın katibliyi
11. Cinayət kollegiyasının katibliyi
12. Hərbi kollegiyanın katiblyi

**Ali Məhkəmənin İşlər İdarəsi**

1. İnformasiya Texnologiyaları şöbəsi
2. Maliyyə-Təsərrüfat şöbəsi

3. Ali Məhkəmənin Xatirə Muzeyi
4. Kitabxana
5. Arxiv
6. Ali Məhkəmənin mətbəəsi

Məlumatın əhatə etdiyi dövrdə Ali Məhkəmənin iş planına uyğun olaraq Aparatın müvafiq şöbələri tərəfindən müəyyən işlər görülmüşdür.

Azərbaycan Respublikasının Ali Məhkəməsi qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqinin vahid təcrübəsinin yaradılması və İnsan Hüquqlarının müdafiəsini tənzimləyən beynəlxalq sənədlərin müddəalarının məhkəmə təcrübəsində tətbiqinin təmini istiqamətində öz səlahiyyətləri çərçivəsində mütəmadi olaraq tədbirlər həyata keçirir. Bu məqsədlə ayrı-ayrı sahələr üzrə məhkəmələr tərəfindən baxılan işlər öyrənilərək ümumiləşdirilir, bu növ işlərə baxılarkən nöqsanlar və qanun pozuntuları aşkar edildikdə ümumiləşdirmənin nəticələri Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunda hakimlərin iştirakı ilə müzakirə olunur.

Belə ki, "Respublikanın məhkəmələri tərəfindən 2013-cü ildə baxılmış dələduzluq cinayətlərinə dair işlər üzrə qanunvericiliyin tətbiqi təcrübəsi" ümumiləşdirilmiş, nəticəsi birinci və apellyasiya instansiyası məhkəmələrinin hakimlərinin iştirakı ilə Ali Məhkəmənin 11 iyun 2015-ci il tarixli Plenumunun iclasında müzakirə edilmiş və müvafiq qərar qəbul edilmişdir.

Bundan başqa, "Respublikanın birinci instansiya məhkəmələrində 2013-cü ildə CM-nin 126 və 127-ci maddələri ilə baxılmış cinayət işləri üzrə cəza təyini təcrübəsi" ümumiləşdirilərək Ali Məhkəmənin 30 oktyabr 2015-ci il tarixli Plenum iclasında birinci və apellyasiya instansiyası məhkəmələrinin hakimlərinin iştirakı ilə müzakirə edilmiş və nəticəsi barədə məhkəməklərə icmal məktubu göndərilmişdir.

Bundan əlavə, məhkəmə təcrübəsinin ümumiləşdirilməsi və məhkəmə statistikasının təhlili şöbəsinin əməkdaşları tərəfindən "Bakı şəhəri Nərimanov Rayon Məhkəməsində 2014-cü ildə ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyəti" ümumiləşdirilmiş, 2015-ci ilin iyun ayından başlayaraq birinci və apellyasiya məhkəmələrində hər ay baxılmış cinayət, mülki və inzibati-iqtisadi işlərə dair məhkəmənin yekun qərarları öyrənilərək Ali Məhkəmənin rəhbərliyinə yazılı məlumat verilmişdir.

Analitik və qanunvericiliyin sistemləşdirilməsi şöbəsinin əməkdaşları tərəfindən 2015-ci ildə şöbənin əsas funksional təyinatından irəli gələn analitik işin həyata keçirilməsi, qanunların və digər normativ hüquqi aktların, normativ xarakterli aktların, o cümlədən onlara edilmiş əlavə və dəyişikliklərin sistemləşdirilməsi və kodifikasiyası təmin edilmiş, Ali Məhkəməyə daxil olan qanunvericilik aktlarının və onların layihələrinin öyrənilməsi həyata keçirilmiş, bu layihələrlə əlaqədar rəy və təkliflər hazırlanaraq müvafiq sorğu edən təşkilatlara göndərilmişdir. Əlavə olaraq şöbəyə daxil olan qanunların, fərmanların, qərarların və digər normativ hüquqi aktların, onlara edilən əlavə və dəyişikliklərin çoxaldılaraq, hərəsindən bir nüsxə olmaqla Ali Məhkəmənin hakimlərinə, Aparatın rəhbərliyinə və struktur bölmələrinə (o cümlədən lokal elektron şəbəkə vasitəsilə) verilməsi təmin edilmişdir. Şöbə tərəfindən müvafiq strukturlarla razılaşdırılaraq bir sıra qanun layihələri də hazırlanmışdır.

Qanunvericilik bazasının "Analitik və qanunvericiliyin sistemləşdirilməsi şöbəsində" olması ilə əlaqədar olaraq Ali Məhkəmənin kollegiya sədrlərinin hakimləri, Aparatın rəhbərliyinin və struktur bölmələri əməkdaşlarının müraciətlərinə əsasən şöbənin əməkdaşları öz növbəsində göstərilən şəxsləri müvafiq normativ hüquqi aktlarla təmin etmişdir.

Ali Məhkəmənin Bülletenində məhkəmələrin fəaliyyəti ilə əlaqədar Milli Məclisin Qanun və Qərarları, Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamları, Ali Məhkəmə Plenumunun qərarları, qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsinə dair ümumiləşdirilmələrin nəticələri, icmal məktubları və məhkəmə fəaliyyəti ilə bağlı əhəmiyyət kəsb edən sair məlumatlar şöbənin əməkdaşları tərəfindən toplanaraq, texniki baxımdan işlənərək nəşriyyata təqdim edilmiş və "Bülleten"lərin nəşriyyat tərəfindən vaxtında buraxılmasına nəzarət həyata keçirilmişdir.

İnsan Hüquqları və ictimaiyyətlə əlaqədar şöbəsi tərəfindən 2015-ci ilin yanvar ayından başlayaraq hər həftənin ikinci günü "İnsan hüquqları üzrə Avropa Məhkəməsinin" təcrübəsinin öyrənilməsi məqsədilə seminar-məşğələlər təşkil edilmiş, Azərbaycan üçün aktual olan İnsan hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarından Ali Məhkəmənin müvafiq kollegiya sədrləri və hakimlərilə razılaşdıraraq mövzuların seçilməsi həyata keçirilmiş, seçilmiş qərarlar üzrə seminar-məşğələ cədvəlləri tərtib edilərək hakimlərə təqdim olunmuşdur. Tərtib edilmiş cədvəl üzrə məruzə ediləcək Avropa Məhkəməsinin qərarlarının surətləri lokal elektron şəbəkə vasitəsilə Ali Məhkəmənin kollegiya sədrlərinə və hakimlərinə verilməsi təmin edilmiş, həmçinin İnsan Hüquqları Üzrə Avropa Məhkəməsinin qərarlarının Azərbaycan dilinə tərcümə olunmuş surəti Respublikanın apellyasiya və birinci instansiya

məhkəmələrinə göndərilməsi həyata keçirilmiş, eyni zamanda həmin qərarların Ali Məhkəmənin internet səhifəsində "Avropa Məhkəməsinin qərarları" bölməsində yerləşdirilməsi təmin edilmişdir.

Ali Məhkəmənin hakimlərinin icraatında olan işlərlə əlaqədar Avropa İnsan Hüquqları Məhkəməsinin müvafiq presedentlərinin tapılması, onların tərcümə olunması və hakimlərə təqdim olunması təmin edilmişdir.

Bundan əlavə 2015-ci il ərzində Avropa İnsan Hüquqları Məhkəməsi tərəfindən Azərbaycana qarşı qəbul edilmiş qərarlar barədə Ali məhkəmənin hakimlərinə və əməkdaşlarına mütəmadi olaraq məlumat verilmişdir.

Məlumatın əhatə etdiyi dövrdə Ali Məhkəmənin Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsinə **22875** ərizə, şikayət və müraciət daxil olmuşdur ki, bu da 2014-cü ildə daxil olmuş ərizə, şikayət və müraciətlərin ümumi sayından **1271,** yəni **5,8%** azdır. Bundan əlavə 2014-cü illə müqayisədə Ali Məhkəməyə daxil olmuş əlavə kassasiya şikayətlərinin sayı da **154**, yəni **9,7%** azalmışdır.

Vətəndaşların ərizə, şikayət və digər müraciətlərinə vaxtında baxılması, onlara hüquqi cəhətdən əsaslı və düzgün cavab verilməsi daim diqqət mərkəzində olmuş, Ali Məhkəməyə daxil olmuş ərizə, şikayət və digər müraciətlərdən **8537-si, yəni 37,3 %-i (**prosessual sənədlər, kassasiya şikayəti, kassasiya protesti, kassasiya şikayətinə etiraz, kassasiya şikayətinə əlavə, vəsatət **və s.)** olduğu üçün icraatda olan işlərə əlavə edilməsi üçün Ali Məhkəmənin müvafiq kollegiyalarına verilmiş, **12915 (56,4%),** müraciətə isə Ali Məhkəmənin rəhbərliyi və Aparatı tərəfindən baxılmışdır.

Ali Məhkəmənin sədri və müvafiq kollegiya sədrləri tərəfindən vətəndaşların qəbulu müəyyən olunmuş günlərdə və saatlarda həyata keçirilir. Qəbul barədə ətraflı məlumat Ali Məhkəmənin internet səhifəsində (azərbaycan, rus və ingilis dillərində) yerləşdirilmişdir.

Ali Məhkəmə Aparatının Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsinin məsləhətçiləri tərəfindən həftənin bütün iş günləri saat 09-00-dan 18:00-dək vətəndaşların qəbulu həyata keçirilir. Şöbənin əməkdaşları tərəfindən 2014-cü il ərzində **1073 nəfər** qəbul edilmiş, onların şikayətləri dinlənilmiş və onlara hüquqi cəhətdən müraciət etmə qaydaları izah olunmuşdur.

Bundan əlavə qeyd olunan müddətdə Ali Məhkəmənin sədri tərəfindən **90** nəfər və kollegiya sədrləri tərəfindən **61** nəfər qəbul edilmiş və onlara müraciət etdikləri məsələlər üzrə müvafiq izahlar verilmişdir.

## Ali Məhkəmənin 2015-ci ildə beynəlxalq əlaqələri.

**2015-ci ildə Ali Məhkəmənin Beynəlxalq hüquq təşkilatları ilə əlaqələri daha səmərəli olmuş, bir sıra ölkələrə, xüsusilə, Avropa ölkələrinə qarşılıqlı səfərlər və təcrübə mübadilələri təşkil edilmişdir. Beynəlxalq əlaqələr Ali Məhkəmənin fəaliyyətinin daha da müasirləşməsinə və təkmilləşməsinə xidmət etmişdir.**

**2015-ci ilin yanvarın 30-da** Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri R. Rzayev İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin məhkəmə ilinin açılmasına həsr olunmuş seminarda iştirak etmişdir. Tədbirdə Avropa Məhkəməsinin sədri Din Şpilman hüquq dünyasını və yerli və milli hakimiyyəti təmsil edən 330 nəfərlik auditoriya qarşısında çıxış edərək il ərzində baxılan və baxışda olan işlərin dinamikasından, Məhkəmədə aparılan islahatların nəticələri barədə, hakimlərarası dialoqun inkişafı üçün 16 saylı Protokolun vacibliyindən, milli parlamentlərin Konvensiya ilə qorunan hüquqların təmin olunmasında rolundan danışmış, 2014-cü ildə baxılan ən mühüm işləri qeyd etmişdir.

**Fevralın 26-da** Ali Məhkəmədə beynəlxalq ekspertlər, Alman Ədliyyə Akademiyasının direktoru Dr. R. Hornung, fransız vəkil L. Petiti, yerli ekspert S. Məmmədli, Avropa Şurasının Proqram meneceri M. Müşteidzadə, Avropa Şurasının Azərbaycan ofisinin layihə icraçısı V. Rövşənova Ali Məhkəmənin hakimləri V. İbayevlə və H. Nəsibovla görüşmüşlər. Görüşdə 2014-2016-cı illər üzrə Azərbaycan üçün Fəaliyyət Planının bir hissəsi olan “Avropa İnsan Hüquqları Konvensiyası və Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnun tətbiqi” adlı yeni layihə haqqında məlumat verilmiş, ilkin olaraq Azərbaycanda hüquq peşəsi sahiblərinin təlim ehtiyaclarının qiymətləndirilməsi üzrə fikir mübadiləsi aparılmış, təlim təcrübəsinin təkmilləşdirilməsi üçün müvafiq fikir və təkliflər səsləndirilmişdir.

**Martın 8-də** Ali Məhkəmənin inzibati-iqtisadi kollegiyasının hakimi Z.Quliyev Polşa Respublikasının paytaxtı Varşava şəhərində keçirilən “Şərqi Avropa və Cənubi Qafqazda seçki mübahisələrinin həlli” mövzusunda Konfransda iştirak etmişdir.

**Aprelin 17-də** Ali Məhkəmədə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Ali Məhkəmənin birgə təşkilatçılığı ilə “Məhkəmə təcrübəsində qadın və uşaq hüquqları” mövzusunda konfrans keçirilmişdir.

Konfransda Ali Məhkəmənin hakimləri, AQUPDK-nin sədri Hicran Hüseynova, Azərbaycan Respublikası Milli Məclisinin komitə sədri və millət vəkilləri Azərbaycan

Respublikası Ədliyyə Nazirliyinin nümayəndələri, birinci və apellyasiya instansiya məhkəmələrinin hakimləri iştirak etmişlər. Konfrans iştirakçıları mövzu ətrafında çıxışlar edərək, mövcud problemlər və onların həlli yollarını müzakirə etmiş, öz fikirlərini bölüşmüşlər.

**Aprelin 27-də** Ali Məhkəmənin cinayət kollegiyasının hakimi İ.Hacıqayıbov Fransa Respublikasının Strasburq şəhərində Avropa Şurası tərəfindən təşkil olunan "İnsan alveri işləri üzrə ixtisaslaşan hakimlər və prokurorlar üçün" ikinci seminarda iştirak etmişdir.

**İyulun 3-də** ölkəmizdə səfərdə olan Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin yanında Hüquq İslahatları üzrə Komissiya sədrinin birinci müavini, nazir xanım Le Si Su Banın başçılıq etdiyi nümayəndə heyəti Ali Məhkəmənin sədri R.Rzayevlə görüşmüşdür. Ali Məhkəmənin sədri ölkəmizdə həyata keçirilən məhkəmə hüquq tədbirlərinin səmərəliliyini diqqətə çatdıraraq bu işin Ali Məhkəmənin strukturunda və fəaliyyətində öz əksini tapması barədə qonaqlara məlumat vermişdir. Qonaq Azərbaycanın müasir tələblərə cavab verən qanunvericilik bazasına xüsusi maraq göstərərək, ölkəmizin mövcud qanunvericiliyi və hüquq sistemi ilə daha yaxından tanış olmaq üçün qarşılıqlı əlaqələrin genişləndirilməsinin vacibliyini qeyd etmişdir. Görüşdə hüquqi dövlət quruculuğu ilə əlaqədar aparılan islahatlar və bu sahədə məhkəmə hüquq təcrübəsi ilə bağlı fikir mübadiləsi aparılmışdır.

**İyulun 14-də** Ali Məhkəmənin hakimləri Z.Quliyev, X.Məmmədov, İ.Hüseynov və S.Hüseynova Almaniya Əməkdaşlıq Cəmiyyəti tərəfindən Azərbaycan Respublikasının Qəbələ rayonunda təşkil olunmuş "Cənubi Qafqazda Avropa standartlarına hüquqi yaxınlaşmanın dəstəklənməsi" layihəsi üzrə hakimlər üçün nəzərdə tutulmuş seminarda iştirak etmişlər.

**Sentyabrın 8-də** Ali Məhkəmənin Beynəlxalq Əlaqələr şöbəsinin müdiri F.Mədətli Fransa Respublikasının Strasburq şəhərində Avropa Şurası və Avropa İttifaqının birgə layihəsi olan "Proqramlar üzrə əməkdaşlıq çərçivəsi"ndə "Ədliyyə islahatı üzrə regional dialoq" adlı layihənin regional rəhbər komitəsinin 1-ci iclasında iştirak etmişdir. O, Azərbaycan məhkəmə sistemində aparılan islahatlar mövzusunda çıxış etmişdir. Tədbir zamanı növbəti iki il ərzində müzakirə olunacaq mövzular müəyyənləşdirilərək, müvafiq işçi qruplar yaradılmışdır.

**Sentyabrın 14-də** Koreya Respublikasının Seul şəhərində Ümümdünya Əqli Mülkiyyət Təşkilatı ilə Koreya Mədəniyyət, İdman və Turizm Nazirliyi və Koreya Müəllif

Hüquqları Komissiyasının birgə əməkdaşlığı ilə Müəllif hüquqlarının təminatı üzrə regionlararası konfransda Azərbaycan Respublikası Ali Məhkəməsinin Beynəlxalq əlaqələr şöbəsinin müdir müavini Əli-İsa Dadaşov iştirak etmişdir. Ə.Dadaşov “Milli səviyyədə təcrübə: Müəllif hüququnun tətbiqində problemlər və prespektivlər” mövzusunda çıxış etmiş, iştirakçıları maraqlandıran sualları cavablandırmışdır.

**Sentyabrın 14-də** Ali Məhkəmənin hakimləri T.Mahmudov, V.İbayev, F.Kərimov, S.Hüseynova, Ə.Əhmədov, Ə.Nurməmmədov, M.Əhmədova, X.Məmmədov, İ.Hüseynov və Z.Quliyev Fransa Respublikasının Strasburq şəhərində Avropa Şurası tərəfindən təşkil olunan “Avropa İnsan Hüquqları Konvensiyası və Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnun Azərbaycanda tətbiq olunması” layihəsi üzrə təlim proqramında iştirak etmişlər.

**Oktyabrın 8-də** ölkəmizdə səfərdə olan Vyana Apellyasiya Məhkəməsinin rəyasət heyətinin üzvü Dr.Mariya-Elizabet Vanke-Çervenkanın rəhbərliyi altında Avstriya Respublikasının Ali Məhkəməsi, Ədliyyə Nazirliyi, Baş Prokurorluğu və müxtəlif instansiya məhkəmələrinin nümayəndələrindən ibarət 37 nəfərlik heyət Ali Məhkəmənin Cinayət kollegiyasının sədri Şahin Yusifovla görüşmüşdür. Görüşdə Ali Məhkəmənin kollegiya sədri respublikamızda həyata keçirilən məhkəmə hüquq tədbirlərinin səmərəliliyini diqqətə çatdıraraq bu işin Ali Məhkəmənin strukturunda və fəaliyyətində öz əksini tapması barədə qonaqlara məlumat vermişdir. Vyana Apellyasiya Məhkəməsinin rəyasət heyətinin üzvü Dr.Mariya-Elizabet Vanke-Çervenka ölkəmizin müasir tələblərə cavab verən qanunvericilik bazasına xüsusi maraq göstərmişdir. Avstriyalı qonaqlar Ali Məhkəmənin inzibati binası ilə tanış olmuş, Məhkəmə tarixi muzeyinə baxmışlar.

**Oktyabrın 11–də** Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayevin rəhbərlik etdiyi nümayəndə heyəti Xorvatiya Respublikasında keçirilən Mərkəzi və Şərqi Avropa ölkələrinin Ali Məhkəmə sədrlərinin Beynəlxalq Konfransında iştirak etmişdir. Konfransın ilk iclasında Ali Məhkəmənin sədri R.Rzayev çıxış edərək, konfrans iştirakçılarına Azərbaycan Respublikasının məhkəmə sistemində son illərdə həyata keçirilən islahatlara və bununla bağlı nailiyyətlərə dair geniş məlumat vermişdir. Konfransda məhkəmələrin iş yükünün azaldılması və məhkəmə mübahisələrinin alternativ yollarla həlli, məhkəmə sədrlərinin mətbuat katibləri vasitəsi ilə ictimaiyyətlə ünsiyyətin artırılması, KİV-lə əlaqələrin genişləndirilməsi, elektron məhkəmə sisteminin yaradılması mövzuları ətrafında geniş müzakirələr aparılmışdır. Konfransın sonunda iştirakçılar tərəfindən “Məhkəmə hakimiyyətinin müstəqilliyi prinsiplərinə dair” Bəyannamə qəbul edilmişdir.

**Oktyabrın 16-da** Ali Məhkəmənin hakimi X.Məmmədov İngiltərənin paytaxtı London şəhərində Avropa Şurası tərəfindən təşkil olunan “Avropa Hakimlərinin Məşvərət Şurasının” 13-cı iclasında iştirak etmişdir.

**Oktyabrın 27-də** Meksika Birləşmiş Ştatlarının ölkəmizə yeni təyin olunmuş səfiri Xuan Rodriqo Labardini Flores Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür. Görüşdə Ali Məhkəmənin sədri Azərbaycanla Meksika Birləşmiş Ştatları arasında əlaqələrin yeni mərhələyə qədəm qoyduğunu, bu əlaqələrin uğurla inkişaf etdiyini vurğulamışdır. Bunun bariz nümunələri kimi 2012-ci ildə Meksikada Tlakskoake-Xocalı meydanını və burada Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidəni xüsusi qeyd etmiş, Meksika- Azərbaycan Dostluq Parkının gözəl istirahət məkanı olduğunu vurğulamışdır. Səfir Azərbaycanın müasir tələblərə cavab verən qanunvericilik bazasına xüsusi maraq göstərərək, Azərbaycanın mövcud qanunvericiliyi və hüquq sistemi ilə daha yaxından tanış olmaq üçün qarşılıqlı əlaqələrin genişləndirilməsinin vacibliyini qeyd etmişdir.

**Oktyabrın 29-da** Milli Məclisə seçkilərlə əlaqədar ölkəmizdə səfərdə olan Müstəqil Dövlətlər Birliyindən müşahidə missiyasının qərargah rəisi Yevgeniy Slobodanın başçılıq etdiyi nümayəndə heyəti Ali Məhkəmənin Inzibati-iqtisadi Kollegiyasının sədri Hikmət Mirzəyevlə görüşmüşdür. Kollegiya sədri bu il noyabrın 1-də Azərbaycanda Milli Məclisə keçiriləcək seçkilərin demokratik keçiriləcəyinə diqqəti cəlb edərək qeyd etmişdir ki, seçkilərlə bağlı məhkəmələrə müraciət edən seçicinin şikayətinə qanunvericiliyin tələblərinə müvafiq baxılır. MDB-dən müşahidə missiyasının qərargah rəisi Y. Sloboda Azərbaycanda Milli Məclisə keçiriləcək seçki prosesini izləmək üçün gəldiklərini bildirmişdir. O, seçki ərəfəsində ciddi qanun pozuntularına rast gəlmədiklərini qeyd etmiş, bütün namizədlərə eyni şərait yaradıldığını müşahidə etdiklərini vurğulamışdır.

**Noyabrın 28-də** Ali Məhkəmənin hakimləri Z.Quliyev, X.Məmmədov və S.Hüseynova Almaniya Əməkdaşlıq Təşkilatı tərəfindən Almaniya Federativ Respublikasının paytaxtı Berlin şəhərində təşkil olunan “Cənubi Qafqazda Avropa standartlarına hüquqi yaxınlaşmanın dəstəklənməsi” layihəsi üzrə hakimlər üçün nəzərdə tutulmuş seminarda iştirak etmişlər.

**Dekabrın 8-də** Ali Məhkəmənin Beynəlxalq Əlaqələr şöbəsinin müdiri F.Mədətli Gürcüstan Respublikasının paytaxtı Tbilisi şəhərində Avropa Şurası və Avropa İttifaqının birgə layihəsi olan “Proqramlar üzrə əməkdaşlıq çərçivəsi”ndə “Ədliyyə islahatı üzrə regional dialoq” adlı layihənin İşçi Qrupunun “Elektron məhkəmə” mövzusuna həsr olunmuş iclasında

iştirak etmişdir. İclasda texnologiyaların infrastrukturu və məhkəmə sistemində onların tətbiqi, həmçinin məhkəmə prosesində istifadə edilən informasiya komunikasiya texnologiyaları ilə bağlı məsələlər müzakirə edilmiş, ədalət mühakiməsinin səmərəliliyinin artırılması məqsədilə elektron məhkəmənin tətbiqi yolları barəsində fikir mübadiləsi aparılmışdır.

**Dekabrın 14-də** Ali Məhkəmənin hakimləri X.Məmmədov və K.Bədəlov Azərbaycan-Türkiyə məhkəmə sistemləri arasında mövcud olan əlaqələrin daha da genişləndirilməsi və inkişaf etdirilməsi məqsədi ilə Türkiyə Respublikasının İstanbul şəhərində hakimlər üçün nəzərdə tutulmuş tədbirdə iştirak etmişlər.

**Dekabrın 22-də** Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayevin rəhbərlik etdiyi nümayəndə heyəti İstanbul şəhərində Türk dilli ölkələrin Məhkəmə-Hüquq Şuralarının toplantısında iştirak etmişdir. Tədbirə Azərbaycan, Türkiyə, Qazaxstan və Qırğızstan nümayəndələri qatılmışdır. Toplantıda Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri R.Rzayev çıxış edərək, Azərbayçanda məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi sahəsində həyata keçirilmiş islahatlardan söhbət açmış, Məhkəmə-Hüquq Şurasının potensialının daha da artırılmasına, məhkəmə islahatlarının əsas istiqamətverici qüvvəsi kimi onun səlahiyyətlərinin genişləndirilməsinə yönəlmiş görülən işlər barədə ətraflı məlumat vermişdir. Toplantı iştirakçıları öz ölkələrinin müvafiq qurumlarının təşkili, fəaliyyəti və səlahiyyətləri barədə məlumat vermiş, qanunvericilikdən və onun tətbiqi təcrübəsindən irəli gələn problemləri müzakirə etmiş, ortaq inkişaf hədəfləri barədə fikir mübadiləsi aparmışlar.

Ali Məhkəmə rəhbərliyinin tapşırığına əsasən müxtəlif sahələr üzrə xarici ölkələrin qanunvericiliyi və məhkəmə təcrübəsi öyrənilərək müvafiq işlər aparılmışdır.

# Ali Məhkəmənin İnternet səhifəsi

Ali Məhkəmənin internet səhifəsi Azərbaycan Respublikası Prezidentinin yanında Xüsusi Dövlət Mühafizə Xidmətinin serverlərində, www.supremecourt.gov.az ünvanında yerləşdirilmişdir. Ali Məhkəmənin yeni internet səhifəsi üç dildə – azərbaycan, rus və ingilis dillərində tərtib edilmişdir.




Qrafik 1

Ali Məhkəmənin internet səhifəsi 5 əsas bölmədən ibarətdir. Burada Azərbaycan Respublikası haqqında məlumatlar, Ali Məhkəmənin strukturu, Qanunvericiliklə bağlı sənədlər, Məhkəmə sənədləri və qərarları, Avropa İnsan Hüquqları məhkəməsinin qərarları, Ali Məhkəmədə keçirilmiş beynəlxalq konfrans materialları, hakimlərin intizam məsuliyyətinə cəlb olunması barədə məlumat, işlərin təyinatı və baxılmış işlərin nəticələri, məhkəmə aidiyyəti, vətəndaşların, ərizə və müraciətlərin qəbulu, arayışlar və mətbuat xidməti haqqında məlumat almaq olar.




Qrafik 2

Bundan başqa, internet səhifəsində Ali Məhkəmənin rəhbərliyinin və hakimlərinin xarici dövlətlərə səfərləri, ölkədaxili tədbirlərdə iştirakı, habelə, Ali Məhkəmənin təşkil etdiyi tədbirlər haqqında məlumatlarla ətraflı tanış olmaq mümkündür.

Ali Məhkəmənin İnternet səhifəsinin "E-Xidmətlər" bölməsində məhkəməyə daxil olmuş işlər barədə operativ məlumatlar, təyin olunmuş işlər barədə gündəlik və həftəlik məlumatlar dərc olunur, məhkəmə qərarlarının axtarışı üçün xüsusi interfeys




yaradılmış, “online müraciət” və qəbul bəndləri əlavə edilmiş, həmçinin hər bənd üzrə istifadəçi üçün təlimat dərc edilmişdir.

2015-ci il ərzində Ali Məhkəmənin internet səhifəsinə daxil olan adamların sayı 122080, daxil olmaların sayı 146410, müraciətlərin sayı isə 463440 dəfə olmuşdur ki, bu da ötən ilin uyğun dövrünə nisbətən orta hesabla 2.3, 1.6 və 1.2 dəfə artıqdır (Qrafik 1).

2011-ci ildən bəri sayta müraciətlərin dinamikasından göründüyü kimi (Qrafik 2), müraciətlərin sayı hər il təqribən 15% artaraq 246775-dən 463440-ə çatmışdır.

2015-ci il ərzində Ali Məhkəmənin internet səhifəsinə dünyanın 100-dən çox ölkəsindən 146410 nəfər daxil olunmuşdur ki, bunların 136606-i Azərbaycandan, 2686-i Rusiyadan, 2289-i ABŞ-dan, 578-i Türkiyədən, 509-u Ukraynadan, 426-sı Almaniyadan, 325-i Gürcüstandan, 253-ü Fransadan, 243-ü İngiltərədən, 187-i Çindən və 4778-i isə digər ölkələrdən olmuşdur.

Qrafiklərdə müraciətlərin təkrarlanma və davamlılığa görə paylanması nümayiş edilir. Üçüncü qrafikdən göründüyü kimi bütün müraciətlərin 59.72%-i bir, 14.29%-i iki, 7.66%-i üç, 4.07%-i dörd, 2.85%-i beş və 11.39%-i altı dəfə və daha çox təkrar olmuşdur.

Dördüncü qrafikdə müraciətlərin davamlılığı nümayiş etdirilir. Buradan göründüyü kimi bütün müraciətlərin 69.56%-i 30 saniyəyə qədər, 4.51%-i 31-60 saniyə, 9.00%-i 1-3 dəqiqə, 10.52%-i 3-10 dəqiqə, 5.98%-i 10-30 dəqiqə, 0.43%-i isə 30 dəqiqədən artıq davam etmişdir.



# Ali Məhkəmənin bülleteni

Azərbaycan Respublikası Ali Məhkəməsinin rəsmi nəşri olan bülleten 2003-cü ilin yanvar ayından nəşr olunur.

İldə dörd dəfə nəşr olunan bülletendə məhkəmə fəaliyyəti ilə bağlı Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi qanunlar, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Ali Məhkəmə Plenumunun qərarları, Ali Məhkəmənin sorğusu əsasında Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qəbul etdiyi qərarlar, qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsinə dair Ali Məhkəmədə aparılan ümumiləşdirmənin nəticələri, icmal məktubları, Ali Məhkəmənin beynəlxalq əlaqələri, Ali Məhkəmə sədrinin görüşləri, məhkəmə təcrübəsi üçün əhəmiyyət kəsb edən məhkəmə qərarları və məhkəmə fəaliyyəti ilə bağlı digər maraqlı materiallar, onun Xüsusi Buraxılışında isə müstəsna əhəmiyyətə malik olan məlumat və sənədlər dərc olunur.

2015-ci ildə Ali Məhkəmənin dörd bülleteni çap olunmuşdur.

2015-ci ildə buraxılmış bülletenlərdə həmçinin, Cinayət işləri, İnzibati-İqtisadi və Mülki işər üzrə məhkəmə təcrübəsi ilə bağlı qanunvericiliyin bəzi maddələrinin şərhinə həsr olunmuş analitik yazılar, “İnzibati məhkəmə icraatında iddianın mümkünlüyünə dair”, “Dələduzluq cinayətlərinə dair işlər üzrə məhkəmə təcrübəsi haqqında”, “İnzibati və mülki hüquq münasibətlərindən irəli gələn mübahisələrin məhkəmə aidiyyətinə dair” Plenumda müzakirə olunan məsələlər və qəbul edilən qərarlar, “İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin “effektiv nəzarət konsepsiyası” (Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi prizmasında), “İnsan hüquq və azadlıqlarının müdafiəsinin yeni aspektləri və ya inzibati məhkəmələrin cəmiyyətdə rolu və əhəmiyyəti” məqalələri, beynəlxalq əlaqələrə və görüşlərə həsr olunmuş məlumatlar, aktuallıq kəsb edən digər tədbirlər öz əksini tapmışdır.

Ali Məhkəmənin bülletenini abunə yazılmaqla əldə etmək olar. Rəngli formada buraxılışı ilə əlaqədar bülletenin illik abunə haqqı 90 manatdır.

Abunə haqqı aşağıda göstərilən hesaba ödənilməlidir.

«Ali Məhkəmənin mətbəəsi» AZ 1025.Bakı şəhəri, Yusif Səfərov küçəsi 14, 1193-cü məhəllə, müqavilə üzrə - İbrahim Ziya, VÖEN 3100693732, H/Hesab №:(IBAN) AZ47UBAZ01009655541040AZN001, Unibank KB-də VÖEN 1300017201, kod 505754, UniBank KB, VÖEN 1300017201, kod 505754, m/h AZ46NABZ01350100000000015944, SWDET BİK: UBAZAZ22.

## Ali Məhkəmənin fəaliyyətinin maliyyələşdirilməsi

Ali Məhkəmənin fəaliyyətinin maliyyələşdirilməsi və onun maddi-texniki təchizatı Azərbaycan Respublikasının dövlət büdcəsi hesabına həyata keçirilir.

Ədalət mühakiməsinin məhkəmə hakimiyyətinin yüksək statusuna uyğun həyata keçirilməsi üçün ölkə Prezidenti tərəfindən məhkəmələrə hər cür şərait yaradılmış və bu proses indi də davam etdirilir.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Ali Məhkəməsi hakimlərinin sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında" 19 oktyabr 2010-cu il tarixli sərəncamı bu sahəyə diqqətin əyani nəticəsidir.

Ali Məhkəmənin fəaliyyətinin maliyyələşdirilməsi üçün 2015-ci ildə ayrılan illik büdcə vəsaiti (dürüstləşmə ilə) **7.163.232** manat, o cümlədən, əmək haqqı fondu **4.826.385** manat müəyyən edildiyi halda, 2016-cı ildə Ali Məhkəməyə ayrılan büdcə vəsaiti **7.063.700** manat müəyyən edilmişdir ki, bu da 2015-ci ildə ayrılan büdcə vəsaitindən **99.532** manat azdır.

## Kütləvi informasiya vasitələri nümayəndələrinin Ali Məhkəmə ilə əlaqə qaydası

Kütləvi informasiya vasitələri nümayəndələrinin Ali Məhkəmə ilə birbaşa əlaqəsinin təmin edilməsi, lazım gəldikdə Ali Məhkəmədə baxılmış mülki və cinayət işləri haqqında onlara operativ qaydada məlumat vermək Ali Məhkəmənin hakimləri Mirzəliyev Əsəd Abdulla oğluna və Kərimov Fərhad Abdulkərim oğluna həvalə olunmuşdur.

Mülki işlərlə əlaqədar məlumat almaq üçün hakim Əsəd Mirzəliyevlə **493-09-91** nömrəli, cinayət işləri ilə əlaqədar isə hakim Fərhad Kərimovla **493-22-03** nömrəli telefonlarla birbaşa əlaqə saxlamaq olar.

Bundan əlavə, həmin hakimlərlə Ali Məhkəmənin contact@supremecourt.gov.az e-mail ünvanı vasitəsilə də əlaqə saxlamaq olar.

Ali Məhkəmədə keçirilən tədbirlər haqqında müvafiq məlumatları **493-18-37** nömrəli telefonla Ali Məhkəmənin mətbuat katibi Məmmədli Allahverdi Məhərrəm oğlundan almaq olar.

*Məlumat kitabçası Ali Məhkəmənin
əməkdaşları tərəfindən
hazırlanmışdır.*

*Redaktor: Allahverdi Məmmədli*

*Tiraj – 200 nüsxə*